Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 21 (8044) BAZAR, 27 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Alim kəndə qayıdır

## Aqrar sektorda islahatlar elmi araşdırmaların istehsalata tətbiqinə söykənir

Azərbaycanda qeyri-neft sektorunun şaxələndirilməsində aqrar sektora xüsusi önəm verilir. Ölkə əhalisinin təxminən yarısının kənd yerlərində yaşamasını nəzərə alsaq, aqrar sektorda aparılan islahatların bütün ölkə üçün xüsusi əhəmiyyət kəsb etdiyini görərik.

İqtisadiyyatın istənilən yeni bir sahəsini yaratmaq, innovasiyaları tətbiq etmək və irəli çıxmaq yeniliklərə və innovasiyalara açıq olan Azərbaycan üçün o qədər də çətin deyil. Lakin aqrar sektorda dönüş əldə etmək üçün yeniliklərlə birlikdə ölkə əhalisinin həmin o yarısının şüurunda da, torpağa münasibətində də dəyişikliklərə nail olmaq zəruridir.

"Meyvəli" topdansatış bazarında qarpız satan bir fermer gileylənirdi ki, toxumu xaricdən alır. O da elədir ki, ikinci dəfə əkəndə bitmir, yəni hər il xaricdən toxum almaq məcburiyyətində qalır. Şimal bölgəsində isə xaricdən gilas qələmləri alan fermerlər çox baha qiymətə aldıqları qələmlərin 3-4 ilə bir qisminin qurumasından gileylənirlər. Bütün bunlar onu ortaya qoyur ki, aqrar sektorda fermerlərə ciddi maddi və elmi dəstəklə yanaşı, toxumçuluğa da dövlətin müdaxiləsi lazımdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində görülən mühüm işlərin sırasında Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun yenidən qurulması, "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin yaradılması önəmli yer tutur. Bu, günün tələbi ilə uzlaşan vacib layihələrdəndir. Kompleksin yaradılması ilə ölkədə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyac ödəniləcək, toxumluq məhsulların istehsalının artırılmasına ciddi dəstək veriləcək, idxaldan asılılıq azalacaq, ixrac potensialı genişlənəcək.

Dövlət başçısı həmin qurumların açılış mərasimindəki çıxışında aqrar sahənin strateji sahə kimi həm iqtisadi, həm sosial sahəyə söykəndiyini qeyd edərək demişdir: "Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın".

Sözügedən elmi tədqiqat müəssisəsi ötən əsrin 60-cı illərində yaradılsa da, son illər fəaliyyət göstərmirdi. Bu qurum əsasən tərəvəz, bostan və kartof bitkilərinin seleksiyası, toxumçuluğu, aqrotexnikası, bitki mühafizə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsində lokomotiv rolunu oynamalı idi. "Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında" Prezidentin 2016-cı il 4 iyul tarixli sərəncamından sonra yeni toxumçuluq kompleksinin inşasına başlanıldı və qısa müddətdə işlər tamamlandı.

Yenidən qurulan kompleksin ərazisində inzibati-laboratoriya binası, toxum saxlanma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satış mərkəzi yaradılıb. Ümumilikdə 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülüb. Elmi-tədqiqat institutunun laboratoriyalarında quraşdırılan müasir cihaz və avadanlıqlarda torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlər həyata keçirilir. Burada qurulan biotexnologiya laboratoriyası isə virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkilinə imkan verir.

Ardı 7-ci səh.

## "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 700) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "2014-2018-ci" sözləri "2014-2028-ci" sözləri ilə əvəz edilsin.
2. 3.1-ci bənddə "2015-2018-ci" sözləri "2015-2028-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 632 nömrəli fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Strukturu"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 632 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 870; 2010, № 4, maddə 291) ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Strukturu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissədə "olan" sözü "yaradılan" sözü ilə əvəz edilsin.
2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Mərkəzi icra hakimiyyəti orqanının yerli bölmələri, mərkəzi icra hakimiyyəti orqanının yanında, tabeliyində olan orqanlar.".

3. Aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Mərkəzi icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, mərkəzi icra hakimiyyəti orqanının yanında, tabeliyində olan orqanların yerli bölmələri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

## ABŞ-ın İrs Fondu Azərbaycandakı iqtisadi islahatları yüksək qiymətləndirib

Vaşinqtonda fəaliyyət göstərən nüfuzlu İrs Fondu (Heritage Foundation) özünün illik Dünya İqtisadi Azadlıq İndeksini yayımlayıb. 1994-cü ildən bəri 25-ci dəfə elan olunan indeksdə 190 ölkə arasında vaxtilə 134-cü olan Azərbaycan artıq 60-cı yerə irəliləyib.

İndeksin təqdimat mərasimində çıxış edən fondun rəhbərliyi Azərbaycanın xüsusən mülkiyyət hüquqları, idarəetmənin şəffaflığı və ədliyyə sisteminin inkişafı sahələrində böyük irəliləyişə nail olduğunu bildirib. İndeksin rəhbəri, səfir Terri Miller Azərbaycanın 2018-ci ildə iqtisadi azadlıq və islahatlar sahəsində ən çox irəliləyən ölkə olduğunu deyib.

Qeyd edək ki, İrs Fondunun dünyada iqtisadi azadlıqlar indeksinin təqdimatları hər zaman ABŞ qanunvericilərinin, Konqresin və ictimaiyyətin diqqətindədir. Təqdimat mərasimində bu orqanların nümayəndələrinin geniş iştirakı da bu marağın göstəricisidir.

Təqdimatda həmçinin Azərbaycanın təşəbbüsü ilə başlanan Transanadolu və Transadriatik qaz boru kəmərləri kimi digər önəmli iqtisadi layihələrə də xüsusi diqqət çəkilib. Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması, lakin bu çətinliklərə baxmayaraq, ölkənin sürətlə iqtisadi islahatlar aparması və daim inkişaf etməsi ifadə olunub. İndeksdə Azərbaycan iqtisadi azadlıqlar sahəsində İtaliya və Fransa kimi Avropa ölkələrindən də yüksək mövqedə qərarlaşıb.

Nəzərinizə çatdıraq ki, İrs Fondu ABŞ-ın ən böyük respublikaçı beyin mərkəzidir. Onun dərc etdiyi rəy və araşdırmalara ABŞ senatı və administrasiyası xüsusi diqqət yetirir. Fondun bir çox eksperti Tramp administrasiyası tərəfindən yüksək vəzifələrə təyin olunub.

## Yüksək beynəlxalq nüfuzun növbəti təsdiqi

### Prezident İlham Əliyevin 49-cu Davos Forumunda keçirdiyi görüşlər Azərbaycanın güclənən mövqelərini bir daha dünya ictimaiyyətinə tanıtdı

Yanvarın 22-dən 25-nə qədər keçirilən 49-cu Dünya İqtisadi Forumu dünyanın siyasi-iqtisadi gündəminin əsas hadisələrindən biri oldu. Siyasətçilər, transmilli şirkətlərin rəhbərləri, tanınmış dövlət xadimləri yenə bu tədbirdə bir araya gələrək dünyanı narahat edən məsələlərlə bağlı müzakirələr apardılar.

Təbii ki, bu cür tədbirlər və əvvəldən müəyyən olunmuş mövzuların müzakirəsi sonrakı dövrlərdə dövlətlərarası siyasi münasibətlərə, qlobal iqtisadiyyatın inkişaf tendensiyalarına təsirsiz ötüşmür.

### Ən aktual məsələlər forumun diqqət mərkəzindədir

Xatırladaq ki, daha çox Davos Forumu kimi tanınan bu beynəlxalq tədbirin əsası Klaus Şvabın 1971-ci ildə avropalı şirkət idarəçiləri ilə birgə təşkil etdiyi kiçik bir toplantıda qoyulub. İlk dövrlərdə Avropa İdarəetmə Forumu olaraq tanınan forum avropalı iş adamlarının ABŞ-da biznes həyatına uyğunlaşmalarını asanlaşdırmaq və Amerika üsullu kapitalizmin qaydalarını avropalılara

WORLD ECONOMIC FORUM
COMMITTED TO IMPROVING THE STATE OF THE WORLD

öyrətmək məqsədini daşıyan seminarlar silsiləsindən ibarət idi. 1970-ci illərin ikinci yarısından etibarən əlaqədar mövzuların məşhur iqtisadçı, biznesmen və siyasətçilərin iştirakıyla geniş bir platformada ələ alınması forumu əhəmiyyətli dünya məsələlərinin müzakirə edildiyi böyük toplantılar silsiləsinə çevirdi.

Davos Forumu hər dəfə bir mövzuya həsr olunur. Forum çərçivəsində keçirilən tədbirlər, panellər həmin mövzu ətrafında təşkil edilir. 49-cu forum "Qloballaşma 4.0: 4-cü sənaye inqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında keçirildi. Belə bir mövzunun müəyyən olunması göstərdi ki, qloballaşan müasir dünyanın aktual məsələləri bu il də forumun diqqət mərkəzində olub. Dördüncü sənaye inqilabının özü ilə gətirdiyi çağırışlar ekologiyanın qorunması üçün tələblər, çoxqütblü dünya nizamı və getdikcə artan qeyri-bərabərliklə birgə addımlayır. Bütün bu inkişaf istiqamətləri qloballaşmanın yeni erasının təməlini təşkil edir. Buna görə də yerli, milli və beynəlxalq idarəçilikdə vaxtında yeni şəraitə uyğun adekvat addımların atılması tələb olunur. Eyni zamanda dünyada gedən sürətli dəyişikliklərlə bağlı beynəlxalq ictimaiyyət səylərini gücləndirməlidir.

Bütün bu məsələlər ətrafında 3 gün ərzində Davosda müzakirələr aparıldı. Bu dəfə dünyanın 100-dən çox ölkəsinin dövlət və hökumət rəhbərlərinin dəvət olunduğu beynəlxalq tədbirə həmçinin 1000-dən artıq qlobal şirkətin rəhbər şəxsləri, beynəlxalq qurumların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, aparıcı media şirkətlərinin nümayəndələri qatılmışdılar. Forum çərçivəsində dünya liderləri qlobal böhranların qarşısının alınması istiqamətində perspektivlər və digər məsələləri müzakirə etdilər.

### Davosda Azərbaycana həmişə böyük maraq var

Dünya İqtisadi Forumunda Azərbaycana həmişə böyük maraq olub.

Ardı 3-cü səh.

## Antimillilərin avantürası və eyforiyası

### Yaxud "Məhsul"dan məhsul götürə bilməyən meydan düşkünlərinin qanunazidd əməlləri xalqı bezdirib

20 Yanvar - Ümumxalq Hüzn Gününün 29-cu ildönümünü qeyd etdik. 29 il öncə paytaxt Bakıda sovet ordusu tərəfindən tökülən günahsız qanlar 70 illik imperiyanın çökməsinə bilavasitə öz təsirini göstərdi. Təbii ki, imperiya caynaqlarından qurtarmaq o qədər də asan deyildi. 20 Yanvar 1990-cı il tarixi yaddaşlara məhz ona görə qanla yazıldı.

Azadlığın verilmədiyi və zorla, qan bahasına alındığını da bura əlavə etməklə deyə bilərik ki, 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və faciələr silsiləsindən biri olsa da, qürur və iftixar mənbəyi, haqqın hayqırtısı, milli oyanış, birlik, əsl həmrəylik günüdür!

Bu birliyi və həmrəyliyi nə qədər qoruyub saxlaya biləcəyiksə, 70 ildən sonra qanımız, canımız bahasına dövlətçiliyini bərpa etdiyimiz müstəqil Azərbaycan bir o qədər də uzunömürlü olacaq. Dövlət müstəqilliyinin bərpasından ötən müddət hələ illərlə ölçülür, əsrlərlə yox. Buna baxmayaraq, keçdiyi inkişaf yolu Azərbaycanı nəinki yerləşdiyi Avropa məkanında, hətta dünyada nümunəyə və söz sahibinə çevirib. Demokratiya və azadlığın xalqımıza və dövlətimizə verdiyi imkanlardan istifadə etməklə özümüzü dünyada təsdiqləmişik. Azərbaycan dünyada bir sabitlik, humanizm adasına bənzəyir. Bu adadan dünyaya qollar - yollar açılır...

### Başıpozuq dəstə... və təfəkkürü xəstələr

Görəsən, azadlığın bərqərar edildiyi, demokratik qanunlarla idarə olunan Azərbaycanın daha işıqlı gələcəyini hamımız görür və bununla qürur duyuruqmu? Öncə bunu deyək ki, xalq dövlət başçısının humanist prinsiplərə söykənən fəaliyyətini birmənalı şəkildə dəstəkləyir və ətrafında birlik nümayiş etdirir.

Əlbəttə, Azərbaycanın belə inkişafı ilk növbədə onun bir nömrəli problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də əsas məsələdir. Bəs nədəndir bir qrup antiazərbaycançı bu inkişafı görmək istəmir? Onlar, doğrudanmı, bu qədər qənim kəsilib öz xalqına və müstəqil dövlətinə?! Təəssüf ki, gördüklərimiz və şahidi olduğumuz hadisələr bunları təsdiqləyir.

Elektron resursların, xüsusən internetin ölkəmizdə məişətimizədək daxil olması məgər demokratiyanın göstəricisi deyilmi?! Nə yazıqlar ki, başıpozuq bir dəstə bu şəbəkədən də antimilli düşüncələrini təbliğ etmək məqsədini qarşısına "mühüm" məqsəd kimi qoyub. Əslində, onları nə radikal müxalifət, nə də milli təəssübkeşlər adlandırmaq mümkündür.

### "Mitinq həvəskarları"nı şirnikləndirən köhnə "qvardiyaçılar"

Bu günlərdə, xüsusən də 20 Yanvar ərəfəsində və sonra sosial şəbəkələrdə xalqı dövlətə qarşı itaətsizliyə səsləmək, hətta lazım gələrsə belə, qan tökməyə hazır olduqlarını gizlətməmək, onu facebook səhifələrində paylaşmaqla kütləviləşdirmək qanunazidd əməllərdən, şəhidlərimizin ruhuna isə hörmətsizlikdən savayı bir şey deyil. Yanvarın 19-da "Məhsul" stadionunda toplaşan həmin "sosial şəbəkə qəhrəmanları"nın antidemokratik və antimilli çağırışlarından sonra metronun "20 Yanvar" dairəsində şəhidlərin şərəfinə ucaldılmış abidə kompleksinin önündə "qələbə"lərini "selfi" ilə qeyd edən gənclərin bir gün sonra Şəhidlər xiyabanında qopardığı yersiz hay-küy yalnız utandırıcı hərəkət deyil, həm də dövlət əleyhinə çağırış idi. Sual olunur: budurmu sizin xalqa və dövlətə göstərdiyiniz vətəndaşlıq borcu?!

Ardı 7-ci səh.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, I kitab, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, №5, maddələr 864, 880, №6, maddə 1191, №7, I kitab, maddələr 1383, 1428) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1.6-cı maddədə “və inzibati ərazi dairələri” sözləri “, inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri” sözləri ilə əvəz edilsin.

2. 11.1.8.2-ci maddəyə “nümayəndələrinin” sözündən sonra “və sahə inzibati ərazi dairələri nümayəndələrinin” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1386-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1386-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 30-1.7-ci maddəsinə uyğun olaraq dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 noyabr tarixli 336 nömrəli Fərmanı) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

“3. Müəyyən edilsin ki:

3.1. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinin ikinci cümləsində, 15-1.3-cü, 15-2.3-cü, 17.5-ci, 23.4-cü, 25.4-cü maddələrində, 27.3-cü maddəsinin ikinci cümləsində, 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində və üçüncü hissəsində, 28.7-ci maddəsinin altıncı və səkkizinci cümlələrində, 28.13-cü maddəsinin birinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci hissəsində, 29.6-cı, 29.7-ci və 29.12-ci (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 11.4-cü maddəsinin ikinci hissəsində, 21.6-cı maddəsinin birinci cümləsində, 22-1.8-ci maddəsində, 28.2-ci maddəsinin ikinci hissəsində, 28.3-cü maddəsinin ikinci cümləsində, 28.5-ci maddəsinin üçüncü cümləsində və 30-1.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, həmçinin 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.1-ci, 11.1.3.2-ci və 11.1.4.3-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.3. həmin qanunun 2.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.4. həmin qanunun 7.1-ci maddəsində və 25.10-cu maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

3.5. həmin qanunun 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.2-ci, 11.1.3.3-cü və 11.1.4.2-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti həyata keçirirlər;

3.6. həmin qanunun 8.1.3-cü maddəsində nəzərdə tutulmuş:

3.6.1. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.6.2. müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası) və Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirirlər;

3.7. həmin qanunun 8.1.4-cü maddəsində nəzərdə tutulmuş:

3.7.1. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;

3.7.2. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.8. həmin qanunun 8.1.5-ci maddəsində nəzərdə tutulmuş:

3.8.1. müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) həyata keçirirlər;

3.8.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri həyata keçirirlər;

3.8.3. müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri və Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

3.9. həmin qanunun 8.1.6-cı maddəsində nəzərdə tutulmuş:

3.9.1. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

3.9.2. müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri həyata keçirirlər;

3.9.3. müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri həyata keçirirlər;

3.10. həmin qanunun 11.1.1.1-ci və 11.1.2.1-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölməsinin səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsi - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi həyata keçirir;

3.11. həmin qanunun 11.1.3.6-cı və 11.1.4.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;

3.12. həmin qanunun 11.1.3.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;

3.13. həmin qanunun 11.1.5.4-cü (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla), 11.1.7.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 11.1.8.2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.14. həmin qanunun 11.1.6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.15. həmin qanunun 11.1.6.4-cü və 11.1.7.3-cü maddələrində nəzərdə tutulmuş:

3.15.1. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;

3.15.2. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

3.16. həmin qanunun 11.1.7.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

3.17. həmin qanunun 11.1.8.1-ci maddəsində nəzərdə tutulmuş:

3.17.1. müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.17.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar həyata keçirirlər;

3.17.3. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;

3.17.4. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;

3.18. həmin qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri həyata keçirirlər;

3.19. həmin qanunun 22-1.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasıdır;

3.20. həmin qanunun 25.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabelik qaydasında yuxarı dövlət orqanı həyata keçirir;

3.21. həmin qanunun 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci hissəsində və 29.7-ci maddəsində nəzərdə tutulmuş qurum Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzidir;

3.22. həmin qanunun 28.2-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;

3.23. həmin qanunun 28.12-ci maddəsinin birinci cümləsində, 29.2-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, üçüncü və dördüncü hissələrində, 29.3-cü maddəsinin birinci və ikinci hissələrinin birinci cümlələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, inzibati ərazi dairələri üzrə nümayəndəliklər və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər həyata keçirirlər;

3.24. həmin qanunun 29.12-ci (birinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

3.25. həmin qanunun 32-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq dövlət orqanının səlahiyyətlərini:

3.25.1. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında və Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

3.25.2. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində həmin mərkəzi icra hakimiyyəti orqanının rəhbəri;

3.25.3. Azərbaycan Respublikası apelyasiya məhkəmələrinin aparatlarında Azərbaycan Respublikasının ədliyyə naziri;

3.25.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirirlər;

3.26. bu fərmanın 3.27-ci bəndində nəzərdə tutulmuş dövlət orqanları istisna olmaqla, digər dövlət orqanlarında dövlət qulluğunda olmanın yaş həddinə çatmış dövlət qulluqçusunu vəzifəyə təyin edən səlahiyyətli şəxs həmin dövlət qulluqçusunun müvafiq vəzifəyə təyin edilməsi barədə qərar qəbul etdikdə, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 32-1.2-ci maddəsinə uyğun olaraq, həmin dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti uzadılmış hesab edilir;

3.27. mərkəzi icra hakimiyyəti orqanına aid sahədə dövlət qulluğunda olmanın yaş həddinə çatmış dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 32-1.2-ci maddəsinə uyğun olaraq dövlət qulluğunda olma müddəti həmin mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən uzadılır;

3.28. bu fərmanın 3.25-ci bəndində nəzərdə tutulmuş dövlət orqanları istisna olmaqla, inzibati vəzifələrin ali-üçüncü təsnifatına aid vəzifələrdə dövlət qulluğu keçən dövlət qulluqçusunu vəzifəyə təyin edən səlahiyyətli şəxs həmin dövlət qulluqçusunun müvafiq vəzifəyə təyin edilməsi barədə qərar qəbul etdikdə, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 32-1.3-cü maddəsində nəzərdə tutulmuş razılıq verilmiş hesab edilir;

3.29. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu qüvvəyə minənədək elan edilmiş müsabiqələrdə iştirak edərək dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilmiş şəxslər həmin siyahıda olduqları müddətdə dövlət orqanlarında analoji vakant vəzifəyə təyin edilə bilərlər. Həmin şəxslərə dövlət qulluğu vəzifəsinə təyin olunduğu gündən sertifikat verilir.”.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununu “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1198-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədilə əlaqədar **qərara alır:**

“Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.0.2-ci və 7.0.1-ci maddələrə “icmal” sözündən əvvəl “büdcə qaydasına uyğun hesablanmış icmal büdcə xərclərinin yuxarı həddi də daxil olmaqla,” sözləri əlavə edilsin.

2. 7.0.3.13-cü maddədə “vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın)” sözləri “vahid xəzinə hesabının sərbəst qalığının” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1425-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1425-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1231) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.3-cü və 1.1.5-ci maddələrdən “kommersiya” sözü çıxarılsın.

2. 1.1.4-cü maddədən “qeyri-kommersiya” sözü çıxarılsın.

3. 7.1.5-ci maddədən “, əmanətlərinin saxlanması” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1420-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1420-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 4.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş komissiyanın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası həyata keçirir;

2.3. həmin qanunun 2.0.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci 1 may tarixli 1099-VQD nömrəli və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 1 may tarixli 1110-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.8.3-1-ci maddədən "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 12.8.3-2-ci maddə əlavə edilsin:

"12.8.3-2. siyasi partiyaların, həmkarlar ittifaqlarının, qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatlar;".

3. 14.2.3-cü maddəyə "fəaliyyət ərazisi," sözlərindən sonra "fəaliyyətinin dayandırılması və bərpa edilməsi," sözləri əlavə edilsin.

4. 14.2.4-cü maddəyə "barədə" sözündən əvvəl ", fəaliyyətinin dayandırılması və bərpa edilməsi" sözləri əlavə edilsin.

5. 14.2.5-ci maddədən ", habelə fəaliyyətinin dayandırılmasına və bərpa edilməsinə dair" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1396-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1396-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2019-cu il*

# YAP Gənclər Birliyinin təşəbbüsü ilə "Sosial şəbəkələr və müasir gənclik" mövzusunda tədbir keçirilib



Yanvarın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşəbbüsü ilə "Sosial şəbəkələr və müasir gənclik" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə YAP sədrinin müavini-icra katibi Əli Əhmədov ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin möhkəmləndirilməsi, inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, iqtisadi, hüquqi islahatların həyata keçirilməsi ilə bağlı ideya və prinsiplərinin Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil etdiyini söyləyib.

YAP sədrinin müavini bildirib ki, bu gün sosial şəbəkələr həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Ona görə də sosial şəbəkələrin cəmiyyət həyatına təsirləri aktual məsələlərdən biridir. Gənclər ictimai-siyasi həyatda fəal iştirak etməlidirlər. Onlar sosial şəbəkələrin yaratdığı imkanlardan düzgün istifadə etməli, mənfi təsirlərdən uzaq olmalıdırlar. Sosial şəbəkələr cəmiyyətə fayda gətirməlidir.

YAP gənclərinin hakim partiyanı layiqincə təmsil etdiklərini vurğulayan Ə.Əhmədov hər kəsin partiyanın sıralarında olan gənclərin fəallığının ötən il keçirilən prezident seçkiləri zamanı şahidi olduğunu qeyd edib. O, gənclərin qarşısında mühüm vəzifələrin dayandığını deyib.

# Azərbaycan-Rusiya İşgüzar Şurasının ümumi iclasında inzibati məsələlər müzakirə edilib

## İclasda şuranın www.ards.az portalının yeni imkanları təqdim olunub




Kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, neft və iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən 100-dən çox biznes struktur və təşkilat nümayəndələrinin iştirakı ilə Azərbaycan-Rusiya İşgüzar Şurasının ümumi iclası keçirilib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclası İşgüzar Şuranın idarə heyətinin sədri Səməd Qurbanov açaraq ötən il ərzində təşkilatın fəaliyyətinin yüksək aktivliyini və müsbət nəticələrini qeyd edib. S.Qurbanov cari ildə Azərbaycan-Rusiya İşgüzar Şurasının iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın inkişafı üçün mövcud potensialı maksimal səviyyədə istifadə etmək niyyətində olduğunu vurğulayıb.

İclas inzibati məsələlərin müzakirəsi ilə davam edib.

Səsvermə zamanı "Logistika", "Qida məhsulları və kənd təsərrüfatı", "Sertifikatlaşdırma və gömrük prosedurları" komissiyalarının sədrləri Natiq Heydərov, İsmayıl Orucov və Namiq Tağıyev seçilib. Həmçinin N.Heydərov idarə heyətinin müavini seçilib.

Daha sonra Azərbaycan-Rusiya İşgüzar Şurasının *www.ards.az* portalının yeni imkanlarının təqdimatı keçirilib. İşgüzar Şura haqqında ətraflı məlumatla yanaşı, portal şura üzvlərinə "Şəxsi kabinet" vasitəsilə geniş funksiyalar təqdim edir. Belə ki, "Şəxsi kabinet"də elektron qeydiyyat funksiyası ilə tədbirlər proqramı yerləşdiriləcək. Bundan əlavə, şura üzvləri Rusiya şirkətlərindən əməkdaşlıq təkliflərinə xüsusi giriş imkanı əldə edəcək və yeni tərəfdaşlarla əlaqə yaratmaq üçün "Maraqlı olduğunu bildirmək" funksiyasından istifadə edə biləcəklər. Həmçinin "Şəxsi kabinet"də şura üzvləri bildirişlər alaraq, habelə məktub və sorğular göndərərək şura rəhbərliyi ilə ünsiyyət qura biləcəklər.

İclasın yekun hissəsində iştirakçılar 2019-cu ilin birinci yarısına olan tədbir və layihələr planını müzakirə ediblər.

# Yüksək beynəlxalq nüfuzun növbəti təsdiqi

*Əvvəli 1-ci səh.*

Çünki Azərbaycandakı inkişaf tendensiyaları, ölkənin qlobal problemlərin həlli ilə bağlı təşəbbüsləri, xüsusən enerji təhlükəsizliyinə, dünyada sülhün bərqərar olunmasına verdiyi töhfələr beynəlxalq səviyyədə hər zaman təqdir olunub. Prezident İlham Əliyevin Davosda keçirdiyi çoxsaylı görüşlər, iştirak etdiyi sessiyalar siyasi-iqtisadi dairələr, media qurumları tərəfindən maraqla izlənilir. Eyni zamanda Prezident İlham Əliyevin iştirak etdiyi sessiyalar Davosun ən yaddaqalan tədbiri kimi bu beynəlxalq foruma öz möhürünü vurur. Bu isə ondan xəbər verir ki, Avropa siyasətçiləri, dövlət rəhbərləri, iqtisadçılar bir çox məsələlər barədə Azərbaycanın mövqeyini öyrənməyə ehtiyac duyurlar.

Prezident İlham Əliyevin Davosa builki səfər qrafiki də, ötən illərdəki kimi, zəngin oldu. Azərbaycan Prezidentinin "Visa" şirkətinin prezidenti Rayan MakInerni, BP qrupunun baş icraçı direktoru Robert Dadli, "CISCO" şirkətinin icraçı vitse-prezidenti Gerri Elliott, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot, Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva, Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyannen, "Microsoft" şirkətinin vitse-prezidenti Mişel Van Der Bel, "Signify" şirkətinin (keçmiş "Philips Lightning") baş icraçı direktoru Erik Rondolat, "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel, "The Boston Consulting Group" şirkətinin prezidenti Riç Lesser, "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas, "VTB-Bank"ın prezidenti Andrey Kostin, "Suez Group" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali, "Equinor" (keçmiş "Statoil") şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşlərində əlaqələr barədə fikir mübadiləsi aparıldı. Görünən odur ki, Azərbaycandakı əlverişli biznes və sərmayə qoyuluşu mühiti dünyanın tanınmış şirkətlərinin ölkəmizə marağını artırıb.

Prezident İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerlə görüşündə də əsasən iqtisadi əlaqələrdən bəhs olundu. Prezident Ueli Maurer dedi ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitdən çox razıdırlar. Onlar Azərbaycanda iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını bildirirlər. Azərbaycan ilə İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiya da göstərdi ki, Azərbaycanın həyata keçirdiyi layihələr, xüsusilə yeni infrastruktur yaratması dünyada böyük maraq doğurur.

Bütün sahələr üzrə dinamik inkişaf yolunda uğurla irəliləyən Azərbaycan həm dünyanın və Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan və həm də regionda əsas söz sahibi olan ölkədir. Bu mənada Azərbaycan Prezidentinin hər il keçirilən Davos İqtisadi Forumunda iştirakı dünyanın siyasi elitasının, nəhəng biznes strukturlarının və nüfuzlu KİV-in diqqət mərkəzində olur. Bu isə ondan xəbər verir ki, Avropa siyasətçiləri, dövlət rəhbərləri, iqtisadçılar bir çox məsələlər barədə məsləhətləşmələrdə Azərbaycanın mövqeyinə ehtiyac duyurlar. 49-cu Davos Forumu bir daha təsdiqlədi ki, respublikamızın dünyada artan nüfuzu və etibarlı tərəfdaş olması iqtisadi güclər tərəfindən qəbul olunur və dövlət başçısının ümumdünya miqyaslı müzakirələrdə fikirləri, təklifləri müstəsna əhəmiyyəti ilə fərqlənir. Buna görə son forumu da Azərbaycan üçün uğurlu saymaq olar. Çünki bu toplantı Azərbaycanın yüksək nüfuzunu, dünya birliyindəki möhkəm yerini bir daha beynəlxalq ictimaiyyətə tanıtdı.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan nümayəndə heyəti Vladiqafqazda Muxtarov məscidinin açılışında və konfransda iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti yanvarın 26-da Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərinə səfər edib. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Nümayəndə heyəti Azərbaycan Prezidentinin yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidinin açılışı ilə əlaqədar təşkil olunmuş tədbirdə iştirak edib. 1908-ci ildə azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarov tərəfindən tikilmiş, Şərq memarlığının ən gözəl ənənələrini özündə ehtiva edən məscid binası Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin dövlətimizin başçısına müraciətinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində bərpa olunub.

Sonra nümayəndə heyəti Vladiqafqaz Milli Elmi Kitabxanasının binasında keçirilən konfransda iştirak edib.

Tədbirdə çıxış edən Şimali Osetiya-Alaniya müftisi Hacımurat Qatsalov Azərbaycan ilə Şimali Osetiya arasında tarixi dostluq, ənənəvi mənəvi əlaqələr barədə məlumat verib. O, Şeyxülislam A.Paşazadənin dini lider kimi Azərbaycan və Qafqaz xalqları qarşısındakı xidmətlərindən danışıb.

Şeyxülislam A.Paşazadə çıxışında bildirib ki, bu gün Vladiqafqazda memarlıq incisi sayıla biləcək Muxtarov məscidinin minarələri fəxrlə ucalır. Azərbaycan xalqının ləyaqətli oğlu Murtuza Muxtarov tərəfindən inşa edilmiş, Azərbaycan-Şimali Osetiya xalqları arasında mənəvi vəhdət rəmzi olan bu məscid uzun əsrlərboyu Azərbaycan və Qafqaz xalqları arasında dostluq və qardaşlığı simvolizə edən mənəviyyat abidəsi olaraq qalacaq.



QMİ sədri Azərbaycan Prezidenti İlham Əliyevin Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin Vladiqafqazdakı Muxtarov məscidinin bərpası üçün müraciətinə diqqətlə yanaşaraq yardım göstərdiyini və bunun nəticəsinin bu gün gözlərimiz önündə yenidən qurulmuş, öz əvvəlki gözəlliyini özünə qaytarmış nəfis məscid binasında təcəssüm etdiyini vurğulayıb. Ölkəmizin daxilində və xaricində dini-mənəvi mədəniyyət abidələrinə qayğı və himayəsini əsirgəməyən dövlətimizin başçısının qlobal miqyasda multikulturalizm, İslam həmrəyliyi ideyalarının fəal müdafiəçisi kimi çıxış etdiyini, tarixi, dini-mənəvi, milli mədəni və ümumbəşəri irsə yüksək diqqət nümayiş etdirdiyini vurğulayan QMİ sədri bu işlərin Azərbaycanda davamlı olaraq həyata keçirildiyini bildirib. O, Azərbaycan Prezidentinin bu ili ölkəmizdə dahi mütəfəkkir, Şərqin humanist filosofu İmadəddin Nəsiminin şərəfinə "Nəsimi ili" elan etdiyini diqqətə çatdırıb.

Çoxmillətli və çoxkonfessiyalı Rusiyada ənənəvi dinlər, o cümlədən İslam dininin ardıcılları üçün bütün lazımi şəraitin yaradıldığını bildirən QMİ sədri Vladiqafqazdakı tədbiri də bu baxımdan gözəl nümunə kimi dəyərləndirib. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin Qafqazda millətlərarası dostluq və dinlərarası anlaşmanın təmini işində Şimali Qafqaz müftilərinin rolunu xüsusi vurğuladıqlarını söyləyən şeyxülislam sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının bu istiqamətdə bundan sonra da səy göstərəcəyini bildirib.

Vladiqafqazdakı Muxtarov məscidinin ərsəyə gəlmə tarixinə dair nadir arxiv sənədləri Azərbaycan xalqına minnətdarlıq əlaməti olaraq A.Paşazadəyə təqdim olunub. Vladiqafqaz Tarix və Arxeologiya İnstitutunun direktoru professor Ruslan Bzarov iştirakçılar üçün nümayiş etdirilən və məscidin tarixçəsindən bəhs edən sənədli film haqqında danışıb.

Tədbirdə Şimali Osetiya-Alaniya Respublikasının tanınmış alimləri professor Marzoyev və professor Kanukova məruzələrlə çıxış ediblər. Məruzələrdə Murtuza Muxtarovun şəxsiyyəti, onun xeyriyyəçilik fəaliyyəti, Azərbaycan-Şimali Osetiya dostluğunun möhkəmlənməsində tarixi rolu vurğulanıb, Azərbaycan ilə Osetiya arasında dostluq və qardaşlıq əlaqələrinin keçmişi və bu günü barədə danışılıb.

Konfransda Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri, Şimali Qafqaz müftiləri, tanınmış elm və din xadimləri iştirak ediblər. Bütün çıxışlarda Azərbaycan və Şimali Osetiya xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin bariz nümunəsi olan Muxtarov məscidinin mövcudluğu, onun yenidən qurulması yüksək dəyərləndirilib. Şimali Osetiya müftisi H.Gatsalov yekun çıxışında Prezident İlham Əliyevə dərin təşəkkürlərini ifadə edib və dövlət başçısının Qafqaz xalqlarına ehtiramlı münasibətindən xeyli məmnun olduqlarını, bunu çox yüksək dəyərləndirdiklərini vurğulayıb. Şimali Qafqaz Müftiləri Koordinasiya Mərkəzinin sədri İsmayıl Berdiyev də Prezident İlham Əliyevə Qafqaz müftiləri adından minnətdarlığını ifadə edib.

Daha sonra Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri Vyaçeslav Bitarov Azərbaycan nümayəndə heyətini qəbul edib. Şimali Osetiya-Alaniya parlamentinin sədri A.Maçnevin də iştirak etdiyi görüşdə Azərbaycan və Şimali Osetiya arasında tarixi, ənənəvi münasibətlər zəmini üzərində həyatın müxtəlif sahələrində əlaqələrin inkişafından razılıq ifadə olunub. Azərbaycan xalqına, onun Prezidentinə dərin ehtiramının və qardaş salamlarının çatdırılmasını xahiş edən Şimali Osetiya Respublikasının başçısı V.Bitarov Muxtarov məscidi ilə əlaqədar tədbirin böyük önəm daşıdığını vurğulayıb. O, QMİ sədri A.Paşazadənin dini lider olaraq fəaliyyətinin Qafqaz bölgəsi üçün çox dəyərli olduğunu vurğulayıb.

QMİ sədri görüşə görə minnətdarlığını bildirib və bu istiqamətdə işlərin davamlı olmasının vacibliyinə diqqəti cəlb edib. Şeyxülislam Azərbaycan Prezidentinin qayğısı sayəsində yenidən qurulmuş Muxtarov məscidinin xalqlarımız arasında mənəvi dostluq abidəsi kimi önəmini yüksək qiymətləndirib. O, gələcəkdə Vladiqafqazda Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin adını daşıyacaq məktəb binasının ucaldılmasını da arzu etdiyini bildirib.

Şeyxülislam Şimali Osetiyadakı Azərbaycan diasporunun xalqlarımız arasında dostluq və əməkdaşlığın dərinləşməsi işinə verdiyi töhfələri vurğulayıb və onların fəaliyyətindən məmnun olduğunu bildirib.

Görüşdə Azərbaycan Milli Məclisinin deputatı Qüdrət Həsənquliyev Azərbaycan ilə Şimali Osetiya arasında mədəni-mənəvi əlaqələrin inkişaf etdirilməsi zərurətindən, habelə iqtisadi sahədə qarşılıqlı investisiya yatırımlarının genişləndirilməsinin əhəmiyyətindən danışıb.

Vladiqafqazdakı görüş və tədbirlərdə Azərbaycan nümayəndə heyəti tərkibində Milli Məclisin deputatları Qüdrət Həsənquliyev, Cavanşir Paşazadə, Hikmət Məmmədov, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və QMİ sədrinin birinci müavini müfti Salman Musayev iştirak ediblər.

# Azərbaycan-İnquşetiya əlaqələri daha da inkişaf edir

Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərində səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə yanvarın 26-da orada səfərdə olan İnquşetiya Respublikasının başçısı Yunus-bek Yevkurovla görüşüb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib. Qeyd edək ki, Şeyxülislam A.Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Prezidentinin yardımı sayəsində yenidən bərpa olunaraq dindarların ixtiyarına verilən məscid binasının açılışında iştirak edib. Azərbaycanın Rusiya, Qafqaz, Şimali Osetiya-Alaniya ilə ənənəvi tarixi mədəni-mənəvi əlaqələri baxımından xüsusi əhəmiyyət daşıyan bu hadisə ilə bağlı Vladiqafqazda konfrans keçirilib.

Şeyxülislamla görüşü zamanı bu tədbirləri yüksək dəyərləndirən İnquşetiyanın rəhbəri Y.Yevkurov qardaşı saydığı Azərbaycan Prezidenti İlham Əliyevə salamlarını və ən xoş arzularını çatdırmağı QMİ sədrindən xahiş edib. Görüşdə Azərbaycan-İnquşetiya dini-mənəvi əlaqələrinin daha da inkişaf etdirilməsi, xalqlarımızın ümumi mənafeləri naminə əməkdaşlıq, ümumqafqaz əhəmiyyətli məsələlər ətrafında fikir mübadiləsi və məsləhətləşmələr aparılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Davos Dünya İqtisadi Forumunda növbəti dəfə fəal iştirakı, onun tribunasında səsləndirdiyi məzmunlu çıxışları, nüfuzlu KİV-ə müsahibələri, milli maraqlara xidmət edən çoxsaylı görüşləri ölkə ictimaiyyətinin, eləcə də elmi dairələrin geniş marağına səbəb olub. AZƏRTAC bununla bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun qeydlərini təqdim edir.

# *Davos İqtisadi Forumu:* uğurlar, vəzifələr və perspektivlər

Müasir şəraitdə qlobal miqyasda baş verən hadisələr və mövcud vəziyyət əməkdaşlığın yeni əsaslarının yaradılması üçün zəmin ola biləcək ideyaların və buna müvafiq platformanın formalaşması məqsədilə dünyanın taleyinə birbaşa təsir edən strateji problemlərin həllinə yönəlmiş müzakirələrin aktuallığı daha da artır. Belə bir qlobal arena rolunu oynayan və 1971-ci ildən ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu bu baxımdan mühüm əhəmiyyətə malikdir. Builki forumun əsas mövzusunu qloballaşma və dördüncü sənaye inqilabı dönəmində hökumətlər və bu inqilabi proseslərin iştirakçıları arasında qarşılıqlı əlaqənin və təsirin optimallaşdırılması problemlərinin araşdırılması təşkil edib. Buna görə də qlobal geosiyasət, maliyyə sistemində texnoloji və potensial struktur dəyişiklikləri imkanları, kapital bazarlarının inkişafı, elektron ticarət, rəqəmsal iqtisadiyyat, qloballaşmanın strateji nəticələri və digər mühüm məsələlər forumun əsas mövzusu sırasında yer alıb. Eyni zamanda, dördüncü sənaye inqilabının vacib tərkib elementlərindən olan blokçeyn və kriptovalyuta kimi yeni texnologiyaların ərsəyə gəlməsində dövlətlər və fərdlər arasında əməkdaşlıq yollarının, səlahiyyət və məsuliyyət dərəcələrinin düzgün müəyyənləşdirilməsi forum iştirakçıları tərəfindən ciddi fikir mübadiləsi obyektinə çevrilib.

Bütün bunlar göstərir ki, müasir çoxqütblü dünyamızda daha da kəskinləşmiş geosiyasi və geoiqtisadi problemlərin həlli, dördüncü sənaye inqilabı ilə bağlı problemlər, yaranmış fürsət və çağırışlar müxtəlif səpkili iş birliklərinə və müzakirələrə ehtiyac doğurur. Bu istiqamətdə real və səmərəli addımların atılmaması isə əksinə, geoiqtisadi və hətta geosiyasi böhranların daha da dərinləşməsinə gətirib çıxara bilər. Bu təhlükə yeni planetar sərhədlər şəraitində yaşayan dünyamız üçün çox real görünməkdə, bəzi məqamlarda isə hətta artıq hiss edilməkdədir. Məhz bu amil insanlar, dövlətlər, hökumətlər və şirkətlər arasında münasibətlərin yenilənməsi, yeni qlobal əməkdaşlıq mərhələsinin bərqərar olması zərurətini meydana gətirir.

Dünya İqtisadi Forumunun "Qloballaşma: Dördüncü sənaye inqilabı dövründə qlobal strukturu formalaşdırmaq" mövzusuna həsr olunması da elə bu zərurətdən irəli gəlib. Forumda aparılan müzakirələr iqtisadi-maliyyə problemlərinin mahiyyətini üzə çıxarıb ki, bunların da sırasına aşağıdakılar daxildir:

- dördüncü sənaye inqilabına xas olan struktur dəyişikliklərinin, pul-kredit və maliyyə sistemlərinin yeni texnologiyalardan və rəqəmsal valyutalardan istifadə şəraitində formalaşması aspektlərinin cəmiyyətin davamlı və uzunmüddətli rifahının yüksəldilməsi baxımından qiymətləndirilməsi;
- qlobal iqtisadi əməkdaşlığa, əqli mülkiyyətə, miqrasiyaya, rəqabətə, vergi siyasətinə, milli təhlükəsizliyə daha geniş zəmanət verən institusional islahatlara dair qlobal dialoqun aparılması;
- geosiyasi problemlərin iqtisadiyyat üçün yaratdığı əngəllər;
- dövlət xidmətlərinin avtomatlaşdırılması potensialı və yolları;
- bərabərlik, rifah, səhiyyə və təhsilə istiqamətlənən dayanıqlı inkişaf modelləri;
- rəqəmsal valyutaların tətbiqinin üstünlükləri və doğurduğu fəsadlar, habelə rəqəmsal valyutaların şəffaflıq və hesabatlılıqla əlaqələri;
- rəqəmsal valyuta növlərinin tətbiqi ilə əlaqədar mərkəzləşdirilməmiş ödəmə sisteminin tətbiqi dövrünün doğura biləcəyi məsələlər;
- rəqəmsal valyutalar tətbiq edilərkən pul-kredit siyasətinin işlənmə mexanizmi;
- yeni ödəmələr sistemi şəraitində dünya ticarətinin özəllikləri.

Bununla yanaşı, Davos Forumunda gələcəyin istehlakı, energetikası, ərzaq sistemi, beynəlxalq ticarət və investisiyalar kimi daha konkret məsələlər də forum iştirakçılarının diqqət mərkəzində olub.

Onu da qeyd etmək yerinə düşər ki, forum iştirakçılarının fikrincə, gələcəkdə də problemlər çoxtərəfli iştirakı əsas götürən dialoq yolu ilə çözülməli, qloballaşma regional və milli problemləri nəzərə almalı, onlara cavab verməlidir. Çoxtərəfli əməkdaşlığa əsaslanan beynəlxalq tənzimləmə yaxşılaşdırılmalı, qlobal problemlərin həllində biznesin, hökumətlərin və vətəndaş cəmiyyətinin səyləri birləşdirilməli, qlobal inkişaf hərtərəfli və davamlı olmalıdır.

Diqqət çəkən əsas məqamlardan biri də budur ki, öz tarixi ərzində bu mötəbər tədbir yalnız iki dəfə Davosdan kənarda keçirilib. Bizim üçün çox qürurverici haldır ki, bu dünyəvi foruma ABŞ-dan başqa yalnız Azərbaycan evsahibliyi edib. 2013-cü ildə Bakıda "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilmiş Dünya İqtisadi Forumu həqiqətən də bu beynəlxalq qurumun ölkəmizin iqtisadi inkişafında qazanılmış uğurlara verdiyi yüksək tarixi bir dəyər kimi qiymətləndirilə bilər. Ölkəmizə göstərilən bu yüksək etimad həm də Azərbaycan Prezidentinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksək səviyyəli işgüzar görüşlərin nəticəsi kimi qəbul olunmalıdır.

Əvvəlki forumlarda olduğu kimi, "Davos-2019"da da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı, müsahibələri və görüşləri iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Azərbaycanda uğurla həyata keçirilən islahatlar forumda iştirak edən çox mötəbər maliyyə qurumları, dünyanın məşhur şirkət rəhbərləri və KİV təmsilçiləri tərəfindən yüksək qiymətləndirilib.

Məsələn, Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva dövlətimizin başçısı ilə görüşündə Prezident İlham Əliyevi ölkədə aparılan uğurlu islahatlar və Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək 25-ci yerə yüksəlməsi münasibətilə təbrik etdi. Dünya Bankı rəsmisi bildirdi ki, bu, Dünya Bankının "Doing Business" reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərdən biridir. Eyni zamanda vurğulanıb ki, Azərbaycan Dünya Bankından yardım alan ölkədən qısa müddətdə donor ölkəyə çevrilib. Bu da son iyirmi ildə Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində mümkün olub.

İqtisadiyyat sahəsində qloballaşma son dövrlərdə daha geniş və sistemli xarakter alsa da, onun kökləri çox-çox əvvəllərə gedib çıxır. XIV-XIX əsrin sonlarını əhatə edən birinci qloballaşma mərhələsi dünya əmtəə bazarının və dünya ticarətinin yaranması ilə xarakterizə olunur. İqtisadi qloballaşmanın hələlik sonuncu - beşinci mərhələsi ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayır və bir sıra xarici iqtisadi əlaqələrin liberallaşması, kapitalın və istehsalın transmilliləşməsi, regional iqtisadi inteqrasiya, təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi, dövlətlərarası tənzimləmə sistemlərinin yaranması, təsərrüfat həyatının qaydalarının unifikasiyası kimi yeni xüsusiyyətlərlə səciyyələnir.

Bütün bunlar isə öz növbəsində, milli iqtisadi müstəqilliklə dünyəvi proses olan qloballaşma arasında optimal uzlaşma əldə olunmasını zəruri edir ki, bunun da bariz nümunələrindən biri kimi Azərbaycanın iqtisadi inkişaf modelini göstərmək olar. Bu mənada Azərbaycan Prezidentinin Davosda Çinin CÇTN televiziyasına müsahibəsində söylədiyi fikirlər çox böyük önəm kəsb edir:

*"Düşünürəm ki, biz milli maraqlarımızın, milli kimliyimizin, müstəqilliyimizin çox güclü müdafiəsi və eyni zamanda, qeyd etdiyim ölkələrlə yaxşı iş münasibətləri arasında balansı tapa bilmişik. Qonşularımızla münasibətlər prioritetdir, çünki biz regionda yaşayırıq. Lakin, eyni zamanda, bizə daha böyük gündəlik lazımdır. Çünki Azərbaycan coğrafi nöqteyi-nəzərdən böyük ölkə deyil. Lakin regionda edə bildiklərimiz, hansı töhfələri verə biləcəyimiz nöqteyi-nəzərindən biz coğrafiyamızdan daha böyüyük".*

Daha sonra cənab İlham Əliyev ölkəmizə böyük imic qazandıran, səmimi olduğu qədər də kəsərli, şəffaf olduğu qədər də şərəfli və xeyirxah dövlət siyasətimizi belə səciyyələndirir:

*"... Biz dediyimizi həmişə edirik. Onlar bilirlər ki, imzamızla sözümüz eynidir. Biz heç vaxt heç kimi məyus etməmişik. Buna görə də bu, artıq etimad məsələsidir və Azərbaycan böyük etimad qazanan ölkədir. Bayaq da qeyd etdiyim kimi, digər ölkələrlə qarşılıqlı fəaliyyətdə bizim siyasətimiz müsbət ssenariyə əsaslanır. Biz müsbət tərəfdaş, dost olmaq istəyirik. Biz imkanımız olduqda kömək etmək istəyirik. Bu kömək vasitəsilə biz çox güman ki, müəyyən çətinliklərdən fayda götürməkdən daha çoxuna nail oluruq. Buna görə düşünürəm ki, Azərbaycan artıq müstəqil xarici siyasəti olan ölkə kimi tanınır və daxili sabitlik, iqtisadi inkişaf bizə bu gücü verir. Eyni zamanda, biz hər hansı bir ölkəyə zərər vurmuruq. Biz, sadəcə, daha yaxşı münasibətlər qurmaq, daha çox iş görmək, insanlarımıza daha yaxşı şərait qurmaq istəyirik, sülh və harmoniya içində yaşamaq istəyirik".*

Eyni zamanda, qloballaşmanın təsiri dövrün yeni çağırışlarını meydana gətirməkdədir. Heç də təsadüfi deyil ki, cənab İlham Əliyev forumda ölkəmizin öz inkişaf strategiyasını beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla yenidən qurduğunu bəyan etdi. Regional proseslərin inteqrasiyasının intensivləşdirilməsi, iqtisadi sistemlərin daha açıq olması, istənilən bazara maneəsiz daxilolma, maliyyə və ticarət əməliyyatlarının həyata keçirilməsi norma və qaydalarının universallaşdırılması, bazarlara nəzarətin və tənzimlənmənin unifikasiyası, kapitalın hərəkətinin, investisiya prosesləri və ödəmə sisteminin standartlaşdırılması zəruriliyi bu çağırışlar sırasındadır.

Dünya ticarətinin liberallaşması tendensiyasını konkret rəqəmlər də göstərir. Belə ki, əgər 1947-ci ildə idxal tarifləri dərəcələrinin orta səviyyəsi 50-60 faiz təşkil edirdisə, bu göstərici 1990-cı illərin əvvəlinə 9,6 faizə qədər azalmışdı, Dünya Ticarət Təşkilatının hədəfi isə 3 faiz təşkil edir. Nəzərə almaq lazımdır ki, yeni texnologiyalar, ilk növbədə, rəqəmsal iqtisadiyyat istehsal üsullarını dəyişməklə məhsuldarlığı və rəqabətqabiliyyətliliyi yüksəltməklə yanaşı, məhsul və xidmət bazarlarının hüdudları anlayışına təzə mahiyyət gətirir. Mütəxəssislərin hesablamalarına görə, rəqəmsal texnologiyaların emal sənayesində tətbiqi bir işçiyə düşən məhsul istehsalını 30 faiz artırmaqla bərabər, işçi qüvvəsinə çəkilən xərcləri də bir o qədər azaltmağa imkan verir. Artıq dünyada beynəlxalq əmtəə ticarətinin 12 faizi, xidmət ticarətinin isə 50 faizi internet vasitəsilə həyata keçirilir.

Müasir şəraitdə qloballaşmanın müsbət tərəflərindən bəhrələnməklə yanaşı, onun mənfi fəsadlarını mümkün qədər azaltmaq da çox önəmlidir. Bu baxımdan qloballaşmanın aşağıda göstərilən töhfələri diqqətdən kənarda qalmamalıdır:

- bütün tərəflərin maraqlarına uyğun sərbəst ticarətin mümkünlüyü;
- yeni qabaqcıl sənaye texnologiyalarının yayılması, birbaşa investisiyaların artması, transmilli şirkətlərin yaranması və ya onlarla iş birliyi;
- daxili və xarici rəqabət amillərinin düzgün tənzimlənməsinə nail olmaqla istehlakçıların mənafelərinin daha dolğun qorunması və qiymətlərin şişirdilməsinin qarşısının alınması;
- innovasiyaların tətbiqinin genişlənməsi və əmək məhsuldarlığının və məhsulun keyfiyyətinin yüksəldilməsi;
- maliyyə resurslarının səfərbər olunması;
- milli qanunvericilik sistemlərinin yaxşılaşdırılması;
- ideya və biliklərin sərbəst yayılması, dünya sivilizasiyası nailiyyətlərindən istifadə imkanı;
- beynəlxalq əmək bölgüsü və istehsal olunan məhsulun maya dəyərinin aşağı salınması;
- əhalinin rifah halının yaxşılaşdırılması.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və dayanıqlı inkişafın təminatı baxımından qloballaşmanın aşağıda göstərilən mənfi nəticələri yolverilməzdir:

- qloballaşmanın inkişaf etməkdə olan ölkələrdən daha çox inkişaf etmiş ölkələrin mənafeyinə xidmət etməsi. BMT-nin məlumatına görə, dünyanın ən zəngin 1 faiz əhalisinin payına 60 faiz kasıb əhaliyə düşən gəlirdən çox qazanc düşür. Əhalisi Yer kürəsi əhalisinin 15 faizindən də az olan Qərb ölkələri dünya resurslarının 70 faizinə sahibdirlər. UNKTAD-ın apardığı son araşdırmalar göstərir ki, 48 zəif inkişaf etmiş ölkə qeyri-tarif tədbirləri adı altında irəli sürülən süni tələblər ucbatından öz ixracatlarının 15 faizini və ya 23 milyard dollar itirirlər.

Bu baxımdan, fikrimizcə, Azərbaycan Prezidentinin konseptual xarakter kəsb edən mülahizələri dünyanın müasir çağırışlarından biri kimi yüksək dəyərə malikdir:

*"... Maliyyə ehtiyatları olmayan ölkələr üçün çox çətin olur. Maliyyə ehtiyatları olmayanların daha çox təxirəsalınmaz problemləri var. Məsələn, işsizlik, gəlir əldə etmək üçün iqtisadiyyatın real sektoruna investisiya yatırmaq və bu ölkələr üçün infrastruktur layihələri prioritet deyil. Buna görə düşünürəm ki, maliyyə institutları bu məsələyə daha çox diqqət ayırmalıdırlar. Xüsusilə aparıcı beynəlxalq maliyyə institutlarını nəzərdə tuturam. Onlar on il ərzində iş yerlərinin açılmasına imkanlar yaradacaq ölkələrə infrastruktur sahəsinə investisiya yatırmağa kömək etməlidirlər".*

Qloballaşmanın digər mümkün mənfi təzahürlərini isə belə qruplaşdırmaq olar:

- ölkələrin maliyyə sferasında destabilizasiya imkanlarının və ölkə iqtisadiyyatına nəzarətin başqa əllərə keçməsi təhlükəsi;
- sosial-iqtisadi təbəqələşmənin artması;
- beynəlxalq maliyyə təşkilatlarına borcların artması;
- işsizliyin çoxalması təhlükəsi və s.

Müasir qloballaşma şəraitində Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin qayəsini bu prosesdə daha çox sosial ədalətə nail olmaqla yanaşı, ölkəmizə qarşı siyasi və iqtisadi təzyiqə yol verilməməsi, ikili standartların fəsadlarının azaldılmasına yönəlmiş ardıcıl, cəsarətli və dərin düşünülmüş mübarizə təşkil edir.

İqtisadiyyatımızın davamlı və səmərəli inkişafı, rəqabətqabiliyyətliliyin yüksəldilməsi ilə bərabər, sosial və iqtisadi innovasiyanın genişləndirilməsi, qabaqcıl informasiya və kosmik texnologiyaların tətbiqi ölkəmizi nəinki regional liderə çevirib, eyni zamanda, dünyada getdikcə şiddətlənən qlobal risklər və iqtisadi-maliyyə böhranlarına rəğmən dövlətçiliyimizin davamlı inkişafına zəmin yaradıb. Təbii ki, bu uğurun qazanılmasında Azərbaycan Prezidentinin böyük ustalıq və uzaqgörənliklə reallaşdırdığı fəal çoxvektorlu, bərabər partnyorluq prinsiplərinə əsaslanan xarici və daxili siyasəti müstəsna əhəmiyyətə malikdir. Bu siyasətin məğzini Davos Forumu çərçivəsində keçirilən "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada Azərbaycan Prezidenti İsveç parlamentinin nümayəndəsinin sualını cavablandırarkən belə açıqlayıb:

*"Mən tamamilə əminəm ki, ölkələri birləşdirən istənilən nəqliyyat layihəsinin geosiyasi əsası var. Bu layihələr geosiyasi vəziyyətə, sabitliyə, proqnozlaşdırmaya müsbət təsir göstərir. Çünki bu layihələr qarşılıqlı asılılıq yaradır. Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq".*

Prezident İlham Əliyevin qloballaşma şəraitində böyük uğurlara gətirib çıxarmış və ölkəmizə iqtisadi, siyasi və sosial dividendlər qazandırmış daxili və xarici siyasətinin yüksək dəyəri həm də qloballaşdırma prosesinə xas olan bir-birinə əks universallıq və unikallıq kimi xüsusiyyətlərin uzlaşdırılmasına nail olmasıdır. Məhz unikallığı və universallığı eyni dərəcədə vacib sayaraq cənab İlham Əliyev onların hər birinin prinsipcə mümkün hesab edilə bilən mənfi nəticələrinin yaranmasına qarşı siyasət aparmaqla, bütün sahələrdə Azərbaycanın müstəqil mövqeyinin tanınmasına nail olmaqla, öz dövlət quruculuğu siyasətində ya mütləq universallıq və ya mütləq unikallıq əvəzinə optimal universallıq və optimal unikallıq yolu ilə ölkəmizi dünyada stabillik adasına, geosiyasi inteqrasiya və multikulturalizm mərkəzinə, dünyəvi tədbir və görüşlərin keçirildiyi təhlükəsizlik məkanına çevirib. Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycanda inkişaf etmiş ölkələrlə bərabərhüquqlu və qarşılıqlı sərfəli əməkdaşlığa əsaslanan bir çox layihələr baş tutub və bu sahədə yeni-yeni addımlar atılmaqdadır.

Bir məsələni də unutmaq olmaz ki, son illər qloballaşma şəraitində mütəxəssislərin "aşağılardan qlobalizasiya" adlandırdıqları və vətəndaşların fəallığı ilə əlaqədar olan sahə də ölkəmizdə uğurla irəliləməkdədir. Turizm, o cümlədən xarici turizm, xaricdə təhsil və məşğulluq, internet ticarəti və son vaxtlar Bakıda təşkil olunan və xarici turistləri cəlb edən güzəştli ticarət tədbirləri buna misal ola bilər.

Turizm bir çox ölkələrin iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil edir. Yüksək inkişaf tempinə görə o, son yüzilliyin iqtisadi fenomeni kimi dəyərləndirilir. Dünya iqtisadiyyatında turizm yalnız neftçıxarma ilə rəqabətdədir. Hazırda dünya iqtisadiyyatında turizmdən gələn gəlir avtomobil sənayesinin gəlirlərini üstələməkdədir. Təsadüfi deyildir ki, turizm dünyada ümumi gəlirin 10 faizinə qədərini təmin edir. Bu sahə valyuta daxilolmalarının və xarici əlaqələrin genişləndirilməsinin mühüm mənbəyi kimi getdikcə daha böyük əhəmiyyət kəsb etməkdədir. Ümumdünya Turizm Təşkilatının proqnozlarına görə, 2020-ci ildə xarici turistlərin sayı 1,6 milyard nəfər, beynəlxalq turizmdən daxilolmalar isə 2 trilyon ABŞ dolları təşkil edəcək. Hər bir ölkədə turizm iqtisadiyyatın digər sahələrinin inkişafına da müsbət təsirini göstərir. Mütəxəssislərin qənaətincə, turizm iqtisadiyyatın 30-dan çox sahəsinin inkişafına şərait yaradır. Onların sırasında, ilk növbədə, nəqliyyat və rabitəni, tikintini, kənd təsərrüfatını, istehlak malları istehsalını və digərlərini göstərmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edən bir sahə kimi turizmin inkişafı dövlətin daim diqqət mərkəzindədir. Hələ 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, 2002-ci ildə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", 2009-cu ildə isə "2009-2018-ci illərdə Azərbaycanda kurortların inkişafı üzrə Dövlət Proqramı" qəbul edilib. Hamımız yaxşı xatırlayırıq ki, Prezident İlham Əliyev 2011-ci ili ölkəmizdə "Turizm ili" elan etmişdi. Halbuki "Böyük İyirmilik" ölkələrinin liderləri turizmin inkişafının əhəmiyyətinə dair deklarasiyanı Azərbaycandan bir neçə il sonra, 2014-cü ildə qəbul etmişdilər. Ölkəmizdə turizmin inkişafına yönəlmiş mühüm sənədlərdən biri də dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "İxtisaslaşmış turizm sənayesinin inkişafının Yol Xəritəsi"dir. Bu müdrik dövlət quruculuğu siyasətinin və cəmiyyətimizin inkişafına xidmət edən iqtisadi strategiyanın bəhrəsi kimi qiymətləndirilən əhalinin real gəlirlərinin artması, milli valyutamızın digər valyutalara nisbətdə stabilliyi, paytaxtda və regionlarda yüksək səviyyəli hotellərin və müalicə mərkəzlərinin istifadəyə verilməsi, yeni yolların çəkilişi, viza rejiminin sadələşdirilməsi və s. imkan verir ki, ölkəmizin turizm sahəsində də rəqabətqabiliyyətliliyi sürətlə artsın.

2017-ci ildə Azərbaycan Respublikası beynəlxalq reytinq cədvəlində ən çox irəliləyən (13 pillə) ölkə olub. Dünya Səyahətlər və Turizm Şurasının məlumatlarına görə Azərbaycan son illərdə (2010-2017-ci illər) turizmin ən yüksək templə inkişaf etdiyi ölkələrin onluğuna daxildir. Bununla belə, etiraf etmək lazımdır ki, ölkəmizin turizm sahəsində çox böyük ehtiyatlarından tam istifadə olunmur. Biz çalışmalıyıq ki, beynəlxalq turizm və ümumilikdə turizm ölkəmizin qeyri-neft sektoru sahələri arasında daha qabaqcıl mövqeyə çıxsın və ölkəmizə daha çox xarici valyuta axınını təmin etsin. Məsələn, məhsul və xidmət ixracından daxil olan ümumi valyutanın İspaniyada 18,3 faizi, Avstriyada 11,8 faizi, Yunanıstanda 33,6 faizi, Portuqaliyada 15 faizi, Kiprdə isə 53 faizi turizmin payına düşür.

Davos Forumunda ənənəvi müzakirə mövzularından olan iqtisadi və investisiya mühitinin vəziyyəti, müasir problemləri və həlli yolları bu il də diqqət mərkəzində olub. Sevindirici haldır ki, ölkəmizdə yaradılmış biznes mühitinin yüksək səviyyəsi xarici şirkət rəhbərləri tərəfindən xüsusi vurğulanır. Yanvarın 23-də Azərbaycan Prezidenti İlham Əliyevlə Davosda görüşü zamanı "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayaraq qeyd edib ki, ölkədə yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, "Procter and Gamble" şirkətini də Azərbaycanda öz fəaliyyətini genişləndirməyə həvəsləndirir. O da vurğulanıb ki, Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi Bakını seçməsini şərtləndirib.



Öz çıxışında bu barədə ətraflı məlumat verən, təcrübəsini bölüşən Azərbaycan Prezidenti deyib:

*"Hesab edirəm ki, infrastruktura investisiya qoymaq üçün neft və qaz satışından əldə etdiyimiz gəlirləri düzgün istiqamətə yönəltməyə müvəffəq olmuşuq və indi biz bununla fərəhlənə bilərik. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən yolların keyfiyyətinə gəlincə, Azərbaycan dünyada 34-cü yerdə qərarlaşıb. Bunu biz neft və qaz satışlarından əldə etdiyimiz vəsaitlə etdik. Sonra əlbəttə ki, bu, biznes mühitinin yaradılmasına gətirib çıxardı. Çünki sizin müasir infrastrukturunuz, qazlaşdırmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda onda bizneslər üçün də investisiya yatırmaq daha asan olacaq. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son "Doing Business" hesabatına əsasən Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq".*

Həqiqətən də ölkəmiz yaradılmış investisiya mühiti ilə öyünə bilər. Bu, onunla bağlıdır ki, istər daxili, istərsə də xarici investisiyaların cəlb edilməsi üçün Azərbaycanda çox əlverişli iqtisadi, siyasi və sosial şərait yaradılıb və bu sahədə zəruri tədbirlər fasiləsiz olaraq davam etdirilməkdədir. Xarici investorlara zəmanətlərin verilməsi, pul vəsaitlərinin ölkə daxilində və ondan kənarda sərbəst hərəkəti, xarici investorların mənafelərinin qorunması, investisiya mühitini özündə ehtiva edən hüquqi bazanın təkmilləşdirilməsi və inkişafı bu qəbildən olan amillər sırasındadır.

Son dövrlərdə xüsusi diqqət yetirilən müəssisələrə optimal vergi yükünün müəyyənləşdirilməsi, kredit siyasətinin səmərəliliyinin artırılması və xarici iqtisadi siyasətin dəstəklənməsi dövlətimizin maraq dairəsinə daxil olan məsələlərdəndir. Nəzərə almaq lazımdır ki, belə pozitiv durum heç də bütün ölkələrə xas deyil. Məsələn, 2018-ci ilin üçüncü rübündə avrozonada işgüzar mühit indeksi 11,5 pillə azalaraq 19,6 təşkil edib. Ekspertlər bu sahədə vəziyyətin daha da pisləşəcəyini proqnozlaşdırırlar.

Bütün bunlarla yanaşı, Azərbaycan Prezidentinin maraq dairəsinə daxil olan məsələlərdən biri də əlamətləri artıq aydın hiss edilən dördüncü sənaye inqilabının fəal iştirakçısı kimi mövqe tutmaqdır. Bu baxımdan Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşü xüsusi əhəmiyyət kəsb edir. Görüşdə Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi. Söhbət zamanı cənab Borge Brende Prezident İlham Əliyevi yenidən Davosda görməkdən məmnunluğunu bildirdi və dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək dedi ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlət başçısı bildirdi ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək. Keçən il Azərbaycanda qeyri-neft sektorunda sənaye istehsalının 9,1 faiz artdığını vurğulayan Prezident İlham Əliyev əminliklə qeyd etdi ki, biz bu vacib layihədə yaxşı tərəfdaşlar olacağıq.

Forumun ən cəlbedici müzakirə obyektlərindən biri də bu yazının əvvəlində qeyd olunduğu kimi, qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə, düşünülməmiş qəfil tətbiqinin isə fəsadlarının neytrallaşdırılması təşkil edir. Artıq bir reallıqdır ki, yaxın onilliklərdə süni intellekt bir çox peşələri əvəzləyəcək. Cənab İlham Əliyevlə görüşündə "Microsoft" şirkətinin vitse-prezidenti Mişel Van Der Bel hökumətlərin və dövlətlərin süni intellekt erasına hazır olmalarının vacibliyini vurğuladı. Diqqətə çatdırdı ki, bu prosesdə hökumət nümayəndələri, elmi dairələr və biznes qurumları bir araya gəlməli, süni intellekt dövrünə transformasiya üçün lazım olan proqramlar və digər layihələr həyata keçirilməklə süni intellektə əsaslanan peşələr üzrə çalışacaq insanlar və müvafiq mühit hazırlanmalıdır. Bu da bütövlükdə informasiya texnologiyalarının inkişafı ilə mümkündür.

Öz növbəsində Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən islahatlar, o cümlədən informasiya texnologiyalarının inkişafına və dövlət xidmətlərinin genişləndirilməsinə göstərilən dəstək haqqında məlumat verdi. Bildirdi ki, Azərbaycanda iqtisadi və sosial həyatın bütün sahələrində informasiya texnologiyalarının tətbiqi genişlənməkdədir və bu, həm də yeni iş yerlərinin yaranması ilə müşayiət olunur. Süni intellekt dövrünə hazırlıq üçün Azərbaycan hökuməti də müvafiq tədbirlər həyata keçirir.

Dördüncü sənaye inqilabı ərəfəsində süni intellektin tətbiqi ilə eyni dərəcədə önəm kəsb edən problemlərdən biri də rəqəmsal iqtisadiyyata geniş şərait yaratmaqdır. Prezident İlham Əliyevlə görüşündə "SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot vurğuladı ki, Azərbaycan iqtisadiyyatındakı mövcud sabitlik və ölkənin maliyyə dayanıqlılığının güclənməsi rəqəmsal iqtisadiyyatın inkişafı üçün geniş zəmin yaradır. Eyni zamanda, rəqəmsal iqtisadiyyat iş yerlərinin böyük sürətlə artmasına imkan verir. Şirkətin baş icraçı direktoru xüsusi vurğuladı ki, rəqəmsal iqtisadiyyatın inkişafı gender bərabərliyinin təmin olunmasına da töhfə verə bilər.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı haqqında danışarkən əsas iki məqam vurğulanmalıdır. Bir tərəfdən ölkəmizdə həyata keçirilən iqtisadi islahatların və bütövlükdə aparılan dövlət quruculuğu siyasətinin digər ölkələr, beynəlxalq maliyyə qurumları və dünyanın aparıcı şirkət rəhbərləri tərəfindən yüksək dəyərləndirilməsi və qabaqcıl təcrübə kimi xarakterizə olunması, ikinci tərəfdən isə daxil olduğumuz dördüncü sənaye inqilabı dövründə ölkəmizin yeni-yeni uğurlara gətirib çıxaracaq strateji yolun müəyyənləşdirilməsi və arzuolunan nəticələrə çatmaq üçün konkret vəzifə, mərhələ və dayanıqlı iqtisadi inkişafa və insanlarımız üçün rahatlığa zəmin ola bilən düzgün təşkilati-tənzimləmə infrastrukturunun yaradılmasına dair konseptual baxışın formalaşmasının əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Ümumiyyətlə, möhtərəm Prezidentimizin Davos Dünya İqtisadi Forumunda növbəti iştirakı, oradakı dərin məzmunlu çıxışları, müsahibələri və milli maraqlara xidmət edən işgüzar görüşləri həm dövlətimiz, həm də xarici tərəfdaşlarımız üçün böyük əhəmiyyət kəsb edən tarixi-siyasi hadisədir. Bu, öz müsbət nəticələrini çox keçmədən həm iqtisadi-sosial inkişafda, həm də beynəlxalq əlaqələrimizin daha da genişlənməsində göstərəcək.

# MADE İN AZERBAİJAN



# İdxala son, ixraca təkan

## "SOCAR karbamid" zavodu kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq

**Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş mühüm proqramlardan biri də modern sənayeləşmədir. Son illərdə yeni dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu sənayeləşmə siyasəti davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirib.**

Prezident İlham Əliyevin həyata keçirdiyi sənayeləşmə siyasətinə uyğun olaraq, son 15 ildə ölkəmizdə yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlayıb, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib.

Bu gün Azərbaycan əbəs yerə Cənubi Qafqazın sənaye mərkəzi hesab olunmur. Əgər diqqət yetirsək, görərik ki, son 6-7 ay ərzində ölkəmizdə onlarla sənaye müəssisəsi fəaliyyətə başlayıb.

Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodu, Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodu, "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodu, İnşaat kimyəviləri zavodu, həmçinin "SOCAR karbamid" zavodunu misal olaraq göstərmək olar.

Bu müəssisələrdən ən sonuncusu yanvarın 16-da Prezident İlham Əliyevin işə saldığı "SOCAR karbamid" zavodudur. Zavodun layihəsi dövlət başçısının 2008-ci ilin avqustunda imzaladığı sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na və 2014-cü ilin dekabrında imzaladığı sərəncamla təsdiq edilmiş "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən icra edilib. Təməli 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan zavod Azərbaycana böyük dvidendlər qazandıracaq.

**"SOCAR karbamid" zavodu -**

- 2011-ci ildə təməli qoyulub;
- dəyəri 800 milyon avro;
- 650-660 min ton karbamid istehsal etmək gücündədir;
- İstehsalın 70 faizi ixrac üçün nəzərdə tutulur;
- Hər il ölkəyə 160 milyon dollara qədər əlavə gəlir gətirəcək;
- 90 milyon dollarlıq valyuta vəsaiti ölkədə qalacaq.

Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib.

"SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihələrdəndir. Zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur. Suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidə tələbat onun aşağı maya dəyəri, qənaətcil daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlığı ilə əlaqədardır. Bu məhsuldan digər kimyəvi maddələrin istehsalında və əczaçılıqda da geniş istifadə olunur.

İndiyədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, yeni zavod nəinki daxili bazarın tələbatını tam ödəyəcək, hətta ixrac da ediləcək və zavod respublikamız üçün əlavə gəlir mənbəyinə çevriləcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycandan Aİ ölkələrinə 10 milyard dollarlıq məhsul

**2018-ci ildə Azərbaycandan Avropa İttifaqına üzv ölkələrə 10 milyard 579 milyon 24 min dollar dəyərində məhsul ixrac olunub.**

Bu göstərici 2017-ci ilə nisbətən 3 milyard 126 milyon 716 min dollar çoxdur.

Ötən il Aİ ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 2 milyard 328 milyon 676 min dollar təşkil edib.



## 31 milyard dollarlıq ticarət dövriyyəsi

**2018-ci ildə Azərbaycanda ticarət əməliyyatlarının həcmi ümumilikdə 30 milyard 923 milyon 602 min ABŞ dolları olub.**

Ticarət əməliyyatlarının 11 milyard 464 milyon 970 min dolları idxalın, 19 milyard 458 milyon 632 min dolları isə ixracın payına düşür. Ötən illərlə müqayisədə ixrac 36 faiz artıb. Xarici ticarət balansında müsbət saldo - yeni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir. Bu da dünya miqyasında nadir hallarda müşahidə olunan mənzərədir.

# Azərbaycanın əsas ticarət tərəfdaşı: İTALİYA

**Dünya dövlətlərinin əsrlər boyu bir-birilə iqtisadi əlaqələr yaratmaq üçün istifadə etdiyi ən çevik, ənənəvi mexanizm xarici ticarətdir. İqtisadçılar hazırda dünyada beynəlxalq iqtisadi münasibətlərin ümumi həcminin 80 faizdən çoxunun beynəlxalq ticarətin payına düşdüyünü bildirirlər.**

**Son 10 ildə Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsi**

- 2009-cu il – 3 milyard 916,1 milyon dollar
- 2010-cu il – 7 milyard 162,4 milyon dollar
- 2011-ci il – 9 milyard 595,4 milyon dollar
- 2012-ci il – 5 milyard 809,5 milyon dollar
- 2013-cü il – 6 milyard 238,8 milyon dollar
- 2014-cü il – 5 milyard 78,2 milyon dollar
- 2015-ci il – 2 milyard 842,1 milyon dollar
- 2016 -cı il – 1 milyard 892,2 milyon dollar
- 2017-ci il – 4 milyard 725.1 milyon dollar
- 2018-ci il – 6 milyard 219 milyon dollar

Azərbaycanda xarici ticarət əlaqələrinin tarixi uzaq keçmişə - Böyük İpək yolu dövrünə təsadüf edir. Müasir dövrdə isə Azərbaycanın müstəqillik qazanması onun həm qonşu ölkələrlə, həm də dünya ölkələri ilə iqtisadi, ticarət əlaqələrinin artmasına təkan verib.

### 170-dən çox ölkə ilə ticarət əlaqəsi yaradılıb

Son illərdə Azərbaycanda istehsal olunan məhsullara dünya bazarında maraq çoxalıb. Bunun nəticəsidir ki, bizim məhsulları alan ölkələrin sayı da getdikcə artır. Bu mənada təbii olaraq xarici ticarətin strukturu dəyişikliyə uğradığı kimi, Azərbaycanın ticarət tərəfdaşlarının da sayı ciddi dəyişib. Belə ki, əgər respublikamızın ticarət tərəfdaşlarının sayı 1997-ci ildə 84, 1999-cu ildə isə 121 ölkə olmuşdursa, hal-hazırda onların sayı 170-dən çoxdur.

Bir məsələni də qeyd edək ki, əvvəllər Azərbaycanın əsas ticarət partnyorlarını MDB ölkələri təşkil edirdisə, indi bu nisbət Avropa İttifaqı ölkələrinin xeyrinə dəyişib. Bu da əsasən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin işə düşməsindən sonra baş verib.

### İtaliya birincidir

2018-ci ildə Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib. Ötən il ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və İsrail qərarlaşıb. İtaliyaya ixrac 5 milyard 879 milyon 775 min ABŞ dolları, Türkiyəyə 1 milyard 825 milyon 981 min dollar, İsrailə isə 1 milyard 310 milyon 824 min dollar dəyərindədir.

Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında ilk üçlükdə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 6 milyard 219 milyon 861 min dollar, Türkiyə ilə 3 milyard 402 milyon 846 min dollar, Rusiya ilə isə 2 milyard 550 milyon 906 min dollar təşkil edib.

Göründüyü kimi, Azərbaycanın xarici ticarətində ixrac üzrə ilk yeri İtaliya tutur. Ümumiyyətlə, Azərbaycanla İtaliya qarşılıqlı olaraq iqtisadi əlaqələrin inkişafına diqqət yetirir və bunun güclənməsinə maraq göstərirlər. Azərbaycan Prezidentinin 2006-cı il 20 sentyabr tarixli sərəncamına əsasən, Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradılıb.

Ötən ilin iyulunda İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana rəsmi səfər edib. Səfər zamanı Sumqayıt Kimya Sənaye Parkının ərazisində İtaliya şirkəti "Maire Tecnimont" tərəfindən inşa edilmiş polipropilen zavodunun açılışı mərasimi keçirilib.

Ümumiyyətlə, son 10 ildə italyan müəssisələrinin və italyan texnologiyalarının Azərbaycanın neft sənayesinə verdiyi töhfə 5 milyard avrodan çoxdur.

### İtaliya yalnız Azərbaycanın neft məhsullarına maraq göstərmir

Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsində əsas yeri neft və kimya sənayesi məhsulları tutur. İtaliyadan ölkəmizə isə texnika, yüngül və yeyinti sənayesi məhsulları gətirilir. Ona görə bu gün qarşıda duran əsas vəzifələrdən biri ixracda qeyri-neft məhsullarının çəkisinin artırılmasıdır.

Hazırda Azərbaycan və İtaliya arasında investisiyaların təşviqi və qorunması haqqında yeni saziş layihəsi, həmçinin energetika, infrastruktur, logistika, dəmir yolları, aqrar sənaye, neft-kimya və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan birgə Fəaliyyət Planı üzərində iş aparılır.

Yaxın vaxtlarda Azərbaycan qazının Avropaya ixracı nəticəsində İtaliya ilə ticarət dövriyyəsinin həcminin bir qədər də artacağı proqnozlaşdırılır. Lakin qeyd edildiyi kimi, prioritet məsələ qeyri-neft ixracını artırmaqdır. Azərbaycanda son illər həyata keçirilən iqtisadi islahatların nəticəsi olaraq ixracatda qeyri-neft sektorunun çəkisi əhəmiyyətli artıb. İtaliyada isə Azərbaycanın yalnız neft məhsullarına maraq göstərmirlər. Ona görə istisna deyil ki, yaxın illərdə İtaliya həm də Azərbaycanın qeyri-neft ixracında əsas ölkələrdən birinə çevriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



## İlin ilk ixrac missiyası Çinə təşkil olunacaq

**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə 2019-cu ilin ilk ixrac missiyası Çin Xalq Respublikasının Pekin şəhərinə təşkil olunacaq.**

Fevral ayının 25-də başlayacaq və mart ayının 1-dək davam edəcək ixrac missiyasına qida, şərab və digər spirtli içkilərin istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətləri daxil olacaq. Missiya çərçivəsində Azərbaycanlı sahibkarlar xarici iş adamları ilə ikitərəfli görüşlər keçirəcəklər, İndiyədək xarici ölkələrə 24 ixrac missiyası təşkil olunub.




## 999 sahibkara 160 milyon manat kredit verilib

**Ötən il ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilib. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb.**

İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

## Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkə Rusiyadır

*Ötən il ölkəyə ən çox Rusiya, Türkiyə və Çindən məhsul idxal olunub.*

*Rusiyadan idxalın dəyəri 1 milyard 885 milyon 164 min ABŞ dolları təşkil edib. Türkiyədən 1 milyard 576 milyon 864 min dollar, Çindən isə 1 milyard 196 milyon 673 min dollarlıq məhsul idxal etmişik.*

# Pomidor satışda birincidir

## İstixanalarda yetişdirilən məhsullara tələbat ildən-ilə çoxalır

**Yerli istehsalın artması ixrac potensialı ilə bağlı imkanların yaranmasına da şərait yaradır. Bu baxımdan qeyri-neft sektorunun inkişafında qarşıda duran mühüm vəzifələrdən biri də ixracı artırmaq, ölkə daxilində istehsal olunan məhsulların bir hissəsini xarici bazarlara çıxarmaqdır.**



### Ən çox satılan məhsul

Bu gün yerli məhsullar arasında ən çox gəlir, valyuta gətirən məhsullardan biri pomidordur. Heç təsadüfi deyildir ki, ölkəmizin ixrac potensialında pomidor birinci yerdə dayanır. Məhz buna görə də insanlar bu qiymətli ərzaq məhsulunun istehsalının ildən-ilə artırılmasına maraq göstərir, daha çox gəlir əldə etmək üçün istixanaların sahələrini genişləndirirlər.

Son illər Samux rayonunda da bu gəlirli ərzaq məhsuluna maraq xeyli artıb. Elə buna görə də son iki ildə istixanaların sahəsi 25 hektardan 100 hektara çatdırılıb. İndi rayonda elə kəndlər var ki, orada istixanaların inkişaf etdirilməsi sahəsində daha çox uğurlar qazanılıb. Ziyadlı, Alabaşlı, Çobanabdallı, Sarıqamış və İstixana kəndlərində, eləcə də Samux şəhərində fəaliyyət göstərən istixanalarda yüzlərlə sakin özünə daimi iş yeri tapıb.

### Məhsul əsasən Rusiya bazarlarına ixrac olunur

Rayon aqrar inkişaf mərkəzinin rəisi, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Rahil Həsənovla söhbət zamanı bəlli oldu ki, son illər daha çox gəlir gətirən bu sahəyə maraq xeyli artıb. Keçən il 4 min 200 ton pomidor istehsal edilmişdirsə, bu il bu rəqəmin 5 min tona çatacağı proqnozlaşdırılır. İstehsal olunan məhsul əsasən Rusiya bazarlarına ixrac olunur: "Pomidorun satışında elə bir çətinlik yoxdur. Qiymət də istehsalçıları razı salır. Hazırda istixanalarda 1000 nəfərdən artıq rayon sakini çalışır ki, onların da orta aylıq əməkhaqqı 300 manatdır".

Alabaşlı kəndinin sakini, "Səma aqro" MMC-nin rəhbəri Razi Abdullayev uzun illərdir ki, istixanada məhsul yetişdirməklə məşğuldur. 10 hektar istixanası var. 100 nəfərədək kənd sakini burada çalışır. Keçən il hər hektardan 80 tona yaxın məhsul götürüb. Cari ildə bu rəqəmin xeyli artacağı gözlənilir. Deyir ki, əsas məsələ keyfiyyətli toxum əldə etmək və bir də aqrotexniki tələblərə düzgün əməl etməkdir. İstixana işlətmək çoxlarına asan gəlir. Lakin bir balaca diqqətsizlik göstərməklə min bir əziyyətlə yetişdirilmiş məhsulu yararsız etmək olar. Odur ki, bu işdə peşəkarlıq həlledici rol oynayır.

### İstixanaların işləməsi yeni iş yerləri deməkdir

Cəlal Ələkbərovun 2 hektar istixanası var. O, 3 il bundan qabaq Samux şəhəri ərazisində "Ata" məsul məsuliyyətli cəmiyyət yaradaraq 20 nəfər həmkəndlisini işə qəbul edib. Ətrafında olan insanlar artıq bu sahədə zəngin təcrübə toplamışlar.

Məhz bunun nəticəsidir ki, hər il yetişdirdikləri məhsulun bir hissəsini ixrac edirlər. Məsələn, keçən il istixanada 550 ton pomidor istehsal edilib ki, bunun da 350 tonu Rusiya bazarlarında satılıb. Bu il də məhsul boldur. Mütəxəssislərin fikrincə, azı, 600 tondan çox pomidor gözlənilir. İstixana sahibi deyir ki, istehsal olunacaq bu qədər məhsulun 400 tonunun xarici bazarlara ixrac olunması nəzərdə tutulub.

### İxrac olunan məhsuldan xeyli qazanc götürülür

Ağasıbəyli kənd sakini Razi Alıyev Qarabağ müharibəsi veteranıdır. Müharibədən qayıtdıqdan sonra təsərrüfatla məşğuldur. Həyətyanı sahəsində istixana qurub. Hər il yetişdirdiyi məhsuldan xeyli qazanc götürür. Əsasən xiyar və pomidor yetişdirir. Bu işdə ona iki oğlu və həyat yoldaşı köməklik göstərir. Razi builki məhsuldarlıqdan razıdır. Deyir ki, yetişdirdiyi məhsulunu əsasən Rusiya bazarlarında satır.

Ümumiyyətlə, 2018-ci il Samux rayonu üçün uğurlu illərdən olub. Rayonda kənd təsərrüfatının bütün sahələrində bir sıra nailiyyətlər qazanılıb. Söz yox ki, bu nailiyyətlərdə istixana sahiblərinin də əməyi çoxdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ölkə iqtisadiyyatına 17 milyard manat sərmayə qoyulub

**2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 238,2 milyon manat vəsait yönəldilib. Sərf edilmiş vəsaitin 68 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil edib.**

Qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 22 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 23 faiz artıb. Ümumi sərmayənin 67,6 faizi məhsul istehsalı sahələrinin, 24,8 faizi xidmət sahələrinin, 7,6 faizi isə ümumi sahəsi 2084,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşüb. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69,7 faizini təşkil edib.

## Belarusa 22 milyon dollarlıq mal satmışıq

**Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsi artıb. Ötən il Azərbaycan ilə Belarus arasında idxal-ixrac əməliyyatlarının həcmi 204 milyon ABŞ dollarına yaxın olub ki, bu da 2017-ci ilin analoji göstəricisindən təxminən 56 milyon dollar çoxdur.**

Ötən il Azərbaycana Belarusdan idxal əməliyyatlarının həcmi 180 milyon 762 min 68 dollar, Azərbaycandan Belarusa ixracın həcmi isə 22 milyon 902 min 84 dollar olub.

Qeyd edək ki, 2017-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 160,7 milyon dollar təşkil etmişdi.





# İmadəddin Nəsimi - 650
## Cahana sığmayan mütəfəkkir şair



● Mənəviyyat xəzinəsi

# Sultan şairlərə örnək şəxsiyyət

**Şəxsiyyətinin şöhrəti Balkan ölkələrindən Hindistan və ərəb torpaqlarına qədər yayılan, bu böyük coğrafiyada söz ustalarının özlərinə bir nümunə saydığı Seyid İmadəddin Nəsiminin adı çəkildikdə ilk olaraq gözümüz önünə bir şair, sufi və mütəfəkkir gəlir. Amma Azərbaycanın bu dahi şairinin şəxsiyyəti, indiyədək mövcud təsəvvürlərin hüdudlu çərçivəsindən fərqli olaraq, çoxyönlüdür.**



Nəsimi həm də Quran təfsirçisi, arif, nasir, tərcüməçi, poetika və musiqi elminin bilicisi, şahmatın fəlsəfəsinə bələd olan nadir şəxsiyyətlərdəndir. Bundan başqa, Nəsimi hürufilik təriqətinin şeyxi və fəaliyyətinin ictimai-siyasi xarakterliliyi baxımından bir ictimai xadimdir. Mütəfəkkir şairin şəhidliyi ona təkcə əzabkeş deyil, həm də bir qəhrəman statusu verdi. Biz bu yazıda yalnız Nəsiminin ictimai xadim kimi fəaliyyətinin xarakteri və ədəbi şəxsiyyətinin sultan şairlərə təsirindən qısaca bəhs edəcəyik.

Nəsimi Şah İsmayıl Səfəvidən daha öncə öz mürşidi Fəzlullahın yolunu davam etdirərək, özəl səciyyəli dini-ideoloji əsaslar üzərində bir dövlətin qurulması təşəbbüslərində olmuş, dövrünün hökmdar və siyasi iqtidar sahibləri ilə sazişə can atmışdır. Şairin həyat yoluna dair azsaylı tarixi və avtobioqrafik məlumatları təhlilimiz nəticəsində onun müttəfiq axtarışı zamanı Sultan Əhməd Cəlayir, Qaraqoyunlu Qara Yusiflə danışıqlar aparması, Zülqədər bəyləri (Nəsrəddin bəy, qardaşı Əli bəy) və Hələb hakimi Yaşbəklə dostluq münasibətləri qurduğu qənaətinə vardıq. Orta çağın ərəbcə mənbələrində şairlə yaxın münasibəti olan bəylər arasında Şah İsmayılın babası Ağqoyunlu Qarayölük Osmanın da adı çəkilir və onun da hürufilik əqidəsini qəbul etdiyi bildirilir.

Bu bəylər içərisində Nəsimi ilə dostluğun nəticəsində onun hürufilik əqidəsini qəbul edən Zülqədər bəyləri Nəsrəddin bəy və Əli bəyin adları xüsusi vurğulanmalıdır. Nəsimi Misirin çərkəz-məmlük sultanı əl-Məlik əl-Müəyyəd Şeyx əl-Mahmudinin hakimiyyətini türk hakimiyyəti ilə əvəz etmək yolunda Zülqədər bəylərinin müttəfiqi idi. Onların siyasi gücü ilə Nəsiminin təriqət rəhbəri kimi kütlələr üzərində nüfuzunun birləşməsi Misir sultanını ciddi təşvişə salır. Nəsiminin edamı əslində Misir sultanının siyasi rəqiblərini qorxutmaq üçün icra olunan siyasi bir akt idi və Şeyx əl-Müəyyəd bu məşum edam hökmü ilə istəyinə nail olur: illər boyunca Misir sultanına qarşı vuruşan Əli bəy Zülqədər 1417-ci ildə - məhz Nəsiminin edam olunduğu ildə sultana üzrxahlıq məktubu yazır, onun qardaşı Nəsrəddin bəy isə 1419-cu ildə Ramazan oğullarına qarşı müharibədə sultanın müttəfiqi olur...

Bir sıra tədqiqat əsərlərində Nəsiminin söz sənətindən bəhrələnən şairlər içərisində onun müasirlərindən olan, mərkəzi Sivas olan bəyliyin hökmdarı Qazi Bürhanəddin də yer alır. Tanınmış türkiyəli alim Z.V.Toqan dil xüsusiyyətləri baxımından Azərbaycan ədəbiyyatının nümayəndəsi sayılan Qazi Bürhanəddin haqqında yazır: "(Qazi Bürhanəddin - **S.Ş.**) ...olduqca çox olmaqla öz müasiri olan Nəsimini yad edir. Nəsimi onun bəzi şeirlərinin vücuda gəlməsində ilham mənbəyi olmuşdur". V.M.Kocatürk və Ə.Səfərliyə görə isə, Nəsimi Qazi Bürhanəddinin xələfidir. Bu mübahisəli bəhsə hər iki şairin yaradıcılıq üslubu və ədəbi zövqündəki yaxınlığı göstərən, qafiyə baxımından da səsləşən eyni rədifli şeirlərin mövcudluğunu qeyd etməklə yekun vururuq. Qazi Bürhanəddinin "Dedilər, gerçəkmi?" rədifli şeiri ilə Nəsiminin "Dedilər, gerçəkmiş" rədifli qəzəlinin müqayisəsi belə bir təsəvvür yaradır ki, sanki Nəsimi iqrar şəklində və hökm tərzində söylədiyi poetik düşüncələrini Qazi Bürhanəddinin elə siyasət adamına xas dolayısı ilə verdiyi şairanə suallara cavab olaraq qələmə almışdır.

Sağlığında şəxsi nüfuzu ilə siyasi iqtidar sahiblərinin bir qismini özünün müttəfiqinə çevirməyi bacaran Nəsimi edamından sonra poetik-fəlsəfi sözünün qüdrəti ilə siyasi güc sahiblərinin düşüncəsinə təsir etməyə davam edir. Belə ki, hürufilərin müttəfiqi Qaraqoyunlu Qara Yusifin oğlu, Qaraqoyunlu dövlətinin ən qüdrətli hökmdarı Cahanşah Həqiqi də atası kimi hürufilik düşüncəsi və bu əqidənin daşıyıcıları ilə sıx əlaqəsini qoruyub saxlayır. Və zənnimizcə, bu bağlılıq Nəsiminin sözü vasitəsilə mümkün olur. Çünki Cahanşahın məhz türkcə divanında hürufiliklə yaxından səsləşmələr mövcuddur və şeirlərdə sələfin düşüncə tərzinə o qədər bağlılıq vardır ki, bəzən onun bir sıra əsərləri yanlış olaraq Nəsiminin divanına daxil edilmişdir. Ümumiyyətlə, Cahanşahın ana dilindəki divanının mütaliəsi hökmdar şairin hürufilik təriqətinə mənsubiyyəti təsəvvürünü yaradır.

Ağqoyunlu dövlətinin hökmdar nümayəndələrinin şeir yaradıcılığı ilə məşğul olub-olmaması barədə qaynaqlarda məlumat verilmir. Amma artıq qeyd etdiyimiz kimi, Ağqoyunlu bəylərindən Qarayölük Osmanın da hürufilik, xüsusilə Nəsimi ilə dostluq münasibəti olmuş, onun təsiri ilə hürufiliyə meyillənmişdi. Qarayölük Osmanın bu təmayülü onun nəvəsi, Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin bədii yaradıcılığı və fəlsəfi görüşlərində yeni cilvədə üzə çıxdı. Söz sənətində sələfinin ənənəsini yaşatmaqla ona müəyyən anlamda ikinci həyat qazandıran Xətai Nəsimi ədəbi məktəbində xüsusi yer tutur. Onun şeirlərində Nəsimi "Hüseyni" və "Seyid Nəsimi" təxəllüsləri ilə yad olunur. Xətainin:

Könlünə gətirmə şəkk ilə güman,
Seyid Nəsimiyə de, ol oldu şan,
Tanrı ilə min bir kəlam söyləşən
Əli Mədinədə, Musa Turdadır, -

kimi misralardan aydın olur ki, şairin nəzərində Nəsimi mötəbər söz sahibidir. Xətai sələfinin "Kimsə gümanü zənn ilə olmadı Həqq ilə biliş" misrasına istinadla "Könlünə şəkk, güman gətirmə, inanmırsansa, bunu Seyid Nəsimidən soruş, o bu yolda şöhrət ("şan") və nüfuz sahibidir".

Qeyd etməliyik ki, hürufilər Fəzlullah həyatda ikən can atdıqları siyasi himayəyə daha çox Şah İsmayıl Səfəvinin hakimiyyəti illərində nail oldular və bu, hürufilik cərəyanının siyasi istiqamətli fəaliyyətinin uğurlarından sayıla bilər.

XVI yüzillikdə Nəsimi sözünün təsiri təkcə hürufiliklə yaxın görüşlərə malik Səfəvilərin ədəbi mühitində deyil, Şah İsmayılın siyasi rəqibi, Şeybanilər sülaləsindən olan özbək xanı Şeybani xanın şeir yaradıcılığında da nəzərə çarpır. Maraqlıdır ki, Nəsiminin ən cazibəli əsərlərindən olan "Sığmazam" rədifli şeirinə az sayda nəzirə yazılmışdır və bu azsaylı şeirlər içərisində Şeybani xanın eyni rədifli qəzəli də yer alır. Halbuki ondan sonra eyni ləhcə ilə divan bağlayan Məşrəb (XVII əsr) artıq Nəsiminin təsiri ilə yazdığı şeirlərinin rədifini cığatay türkcəsinin təbiətinə uyğunlaşdırır: "Sığmadim" və "Sığmamdur".

Nəsiminin nüfuz sahəsinə XV-XVI yüzilliklərdə Mavəraünnəhr və Xorasanda yaşayıb-yaradan söz ustalarının böyük əksəriyyəti (Lütfi, Ətayi, Hafiz Xarəzmi, Səkkaki, Nəvai və b.) kimi Teymuri hökmdar şairlərindən Sultan Hüseyn Bayqara da daxildir.

Misirin çərkəz əsilli məmlük sultanlarından Qansuh əl-Quri (Qavri) (XVI əsr) də siyasi müttəfiqi Şah İsmayıl kimi, Nəsimi şəxsiyyətinə dərin rəğbət bəsləmiş, türkcə divanında bir neçə dəfə onun poetik irsinə müraciət etmiş, hürufi şairin şeir yaradıcılığını özünə örnək bilmişdir. Bu sultanın özünün bir qələbəsi şərəfinə içərisində Nəsiminin məzarı da yerləşən məscidi bərpa etdirməsi isə onun hürufiliyə meylindən artıq Nəsiminin şəxsiyyətinə ehtiramının göstəricisidir.

Nəsiminin hökmdar xələfləri silsiləsində Osmanlı şahzadə və sultanları da yer alır. Ədirnəli Nəzminin "Məcməün-nəzair" adlı məcmuəsində, M.F.Köksalın da qeyd etdiyi kimi, Nəsimiyə nəzirə yazanlar içərisində "Ədni" təxəllüslü Mahmud Paşa, "Cəm" təxəllüslü Şahzadə Cəm (2 şeir), "Avni" təxəllüslü Sultan Mehmed Fateh (2 şeir), "Muhibbi" təxəllüslü Sultan Süleyman (11 şeir) kimi paşa, şahzadə və sultan şairlərin adlarına rast gəlinir.

Sultan Mehmed Fateh "ənəlhəq" nidasını eşq ilə əlaqələndirərək onu Nəsiminin fədakarlığının da əsas təkanverici qüvvəsi olaraq şərh edir: "Ol sədadır yüzdirən cildi-Nəsimi münkirə..." Sultan şairin Nəsiminin dərisini soyduranı "münkir" (inkarçı, kafir) adlandırması da maraq doğurur. Belə ki, fərmanda Nəsimini etiqadi görüşlərinə görə edam etdirdiyini qeyd edən sultanın - əl-Məlik əl-Müəyyəd Şeyx əl-Mahmudinin Fateh tərəfindən bu tərzdə təqdimi onun hürufi şairin tarixi şəxsiyyəti barədə məlumatlı olduğunu və hadisələrin iç üzündən xəbərdarlığını göstərir.

Qeyd etməliyik ki, türkcə divan şeirində xitabi qəzəllərin ilk nümunələri Nəsiminin qələminə məxsusdur ("Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım, Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım") və onun bu qəzəlləri bir çox şairlər kimi, Sultan Süleyman Qanuninin də diqqətini cəlb etmişdir:

Cəlisi-xəlvətüm, varum, həbibüm, mahi-tabanum,
Ənisüm, məhrəmüm, varum, gözəllər şahı sultanum.

Krımın məşhur xanı, şairi və qəhrəmanı Bora Gazi Giray (XVI əsr) da Nəsimiyə bir neçə nəzirə yazmışdır və Sultan Süleyman kimi, o da qəzəllərindən birinə Nəsiminin bəhsini etdiyimiz şeirini örnək olaraq seçmişdir:

Həbibim, munisim, yarım, dərdə dərmanım,
Ənisim, yari-dilxahım, lətifim, məhrəmim, canım.

Əslində çox mürəkkəb fəlsəfi düşüncə sahibi olaraq əsrarəngiz mütəfəkkir, ənənəvi şeir qəlibində belə fərdiyyətin ifadəsi ilə səmimi şair olaraq tanınan Nəsiminin bir tarixi və ədəbi şəxsiyyət kimi sözünün təsir dairəsi daha geniş və çoxyönlüdür. Burada yalnız Nəsimi sözü və şəxsiyyətinə müxtəlif dövrlər və coğrafiyalarda rəğbət və məhəbbəti yığcam xatırlatmalarla ifadə etməyə çalışdıq.

*Səadət ŞIXIYEVA,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi*

● Tarixləşən heykəllər

# Abidələşən düha



**Bəşəri dəyərlərin fövqündə dayanan, şöhrəti əsrləri kölgədə qoyan Azərbaycan şairi İmadəddin Nəsimi... O, Sözlə öz pünhan duyğularının, fəlsəfi düşüncəsinin rəsmini çəkdi. Bütün zamanlarda rəssamlar, heykəltəraşlar, şairlər, yazıçılar, bəstəkarlar İmadəddin Nəsimi obrazını yaratmaq üçün mütləq bu rəsmi "oxumalıdırlar". Yoxsa Nəsimini "görə bilməzlər"...**

### Zamana meydan oxuyan şair

...Orta əsr dərvişlərinin yundan hazırlanan geyimində, əlləri arxadan birləşib, başı azca sağa yönlənib. Məğrur duruşu ilə o, sanki zamana meydan oxuyur. Mütəfəkkir şairin simasından bu məşhur:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam,-

misralarını oxumaq olar. İmadəddin Nəsimi bu möhtəşəm görünüşü ilə qırx ildir ki, Bakının mərkəzi küçələrindən birində qərar tutub. Heykəl iki istedadlı heykəltəraşın - Tokay Məmmədov və İbrahim Zeynalovun birgə işidir.

"İmadəddin Nəsimi"ni seyr etdikcə düşünürsən ki, qüdrətli şairin söz dünyasına, fəlsəfi düşüncəsinə bələd olmadan belə möhtəşəm abidə yaratmaq mümkünsüzdür. Yaşadıqları XX əsrin 70-ci illərindən XIV əsrin Nəsimisini "görmək", onun xarici görünüşünü və daxili aləmini, həm dövrünə uyğunluqlarını, həm də özünəməxsusluqlarını təsirli bir şəkildə canlandırmaq müəlliflərdən istedadlı olduqları qədər də, dərin bilgi, məlumatlılıq tələb edirdi.

Müəlliflər şairin heykəlini çox əlamətdar bir vaxtda yaratmağa başladılar. Ötən əsrin 70-ci illəri idi. Bakı şəhərsalmanın coşqun çağlarını yaşayırdı. Yeni binalar tikilir, parklar, müəssisələr salınırdı. Həmin vaxtlar UNESCO Azərbaycanın dünyaya bəxş etdiyi dühalarından birinin - şair İmadəddin Nəsiminin 600 illiyinin keçirilməsi barədə qərar verdi. Tədbirlər planında şairə məmləkətində heykəl ucaldılması da nəzərdə tutulurdu.

1973-cü ildə böyük mütəfəkkirin 600 illiyi dövlət səviyyəsində qeyd olundu. Nəsimi haqqında elmi əsərlər, monoqrafiyalar yazıldı. Həmin il dövlət sifarişi ilə Həsən Seyidbəyli "Nəsimi" filmini çəkdi, Fikrət Əmirov "Nəsimi dastanı" baletini başa çatdırdı, İsa Muğanna "Məhşər" romanını, Qabil "Nəsimi" poemasını yazdı. Sonradan müəlliflərə dövlət mükafatları da təqdim edildi. Heykəltəraşlıq sahəsində də şair unudulmadı. Nəsiminin heykəlini yaratmaq sifarişi monumental abidə ustası Tokay Məmmədova həvalə olundu. Əsərin qısa müddətdə hazırlanması tələb olunduğundan heykəltəraş bu işi başqa bir istedadlı həmkarı - İbrahim Zeynalovla yerinə yetirdi. Heykəlin 69 santimetrlik modeli və 2 metrlik maketi düzəldildi.

### Əsərin müəllifləri...

6,5 metr hündürlükdə monumental əsər şairin yaradıcılığına və şəxsiyyətinə böyük ehtiramla, yüksək peşəkarlıqla hazırlandı. Başqa cür olacağını da kimsə gözləmirdi. Çünki hər iki heykəltəraş öz sənətinin peşəkarı idi. Tokay Məmmədov da, İbrahim Zeynalov da bu əsərə qədər heykəltəraşlıq sənətində təqdirəlayiq yol keçmişdilər.

Tokay Məmmədov 1927-ci il iyulun 18-də Bakıda dünyaya gəlmişdi. Atası Həbib Məmmədov texniki elmlər doktoru, anası Zivər xanım Azərbaycanın ilk qadın heykəltəraşı idi. Tokay Məmmədovun bu sənətdə ilk müəllimi də anası oldu. Hələ uşaqlıq illərində onu gələcəyin rəssam-heykəltəraşı hesab edirdilər. Bu sənət üzrə əvvəl Bakıda, sonra Leninqradda (indiki Sankt-Peterburq) təhsil aldıqdan sonra Tokay Məmmədov Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətə başladı. O, mərmər, tunc, gips materiallardan yüzlərlə portret yaratdı. Həmin əsərlərdə heykəltəraş qəhrəmanlarının xarici görünüşü ilə bərabər daxili aləmini təsirli şəkildə təsvir edə bildi. Onun Azərbaycanın şöhrətli bəstəkarı Üzeyir Hacıbəyli, xalq rəssamı Rüstəm Mustafayev, rəssam Vəcihə Səmədova, yazıçı Süleyman Rəhimov, polyak bəstəkarı Şopen, Avstriya bəstəkarı Motsart kimi dahilərin büst-portretləri bu qəbildəndir.

Heykəltəraşın yaradıcılığı monumental heykəllərlə də zəngindir. Həmin əsərlərdə Azərbaycanın dövlət, ədəbiyyat, elm xadimləri və qəhrəmanlarının surətləri əksini tapdı.

"İmadəddin Nəsimi" heykəlinin həmmüəllifi İbrahim Zeynalov da Bakıda 1934-cü ildə dünyaya göz açıb. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra təhsilini Leninqradda Rəssamlıq Akademiyasında davam etdirib. 1971-1973-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində müəllim, 1973-1993-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışıb. Sonralar Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru olub.

İbrahim Zeynalov tarixi şəxsiyyətlərimizin, eləcə də Mücirəddin Beyləqani, Əcəmi Naxçıvani, Şah İsmayıl Xətai, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov və Hacı Zeynalabdin Tağıyevin unudulmaz obrazlarını dəyərli abidələrə çevirdi. Həmmüəllifi olduğu "İmadəddin Nəsimi" heykəli də belə böyük sənətkarlıqla yaradılmış əsərlərdəndir.

İbrahim Zeynalovun yaradıcılığı ilə tanışlıq onun Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, xalqımızın unudulmaz qəhrəmanları barədə geniş və əhatəli məlumatlara malik olduğunu, bunları ustalıqla öz daş əsərində əks etdirdiyini söyləməyə əsas verir. Bu baxımdan "İmaddəddin Nəsimi" heykəlinin birinci müəllifi kimi Tokay Məmmədovun adının çəkilməsi, İbrahim Zeynalovun onun kölgəsində qalması inandırıcı görünmür.

### Nəsiminin heykəli təmirdən sonra

Gərgin zəhmət, böyük əziyyətlər və ən əsası, şairə sevgidən yoğrulan heykəl 2008-ci ilin aprelində yerindən götürüldü. 2010-cu ildə bağ-park kompleksi ilə bərabər "İmadəddin Nəsimi" də yenidən şəhərin mərkəzinə "döndü". Heykəl və park sahmana salındı.

Heykəltəraşlıqda monumental abidələrlə ətrafda olan tikililər arasında standartlara uyğun məsafənin saxlanılması əsas şərt sayılsa da, "İmadəddin Nəsimi"də buna əməl edilmədi. Adətən belə vəziyyət abidənin təsiredici estetik qüvvəsini zəiflədir. İllər keçdikcə, arxitektura baxımından az da olsa, monumental əsərə xələl dəydi. Yeni tikililər görüm nöqtəsini zəiflətsə də, bu modern binaların əhatəsində belə "İmadəddin Nəsimi" öz möhtəşəmliyini hifz edir.

*Zöhrə FƏRƏCOVA,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

### Etməgil!

Üzün məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,
Aşiqi bixaniman etmək dilərsən, etməgil!

Qaşların qövsində müjganın xədəngin gizləyib,
Ey gözü məstanə, qan etmək dilərsən, etməgil!

Canımı vəslin şərabından ayırdın, ey gözüm,
Eynimi gövhərfəşan etmək dilərsən, etməgil!

Qoymuşam eşqində mən kövnü məkanın varını,
Can nədir kim, qəsdi-can etmək dilərsən, etməgil!

Bürqəi üzündən açarsan məgər naməhrəmə,
Gizli əsrari əyan etmək dilərsən, etməgil!

Yandırırsan önlümü eşqində, məlum oldu kim,
Ani risvayi-cahan etmək dilərsən, etməgil!

Doğruyam eşqində oxtək, kiprigin tanıq durur,
Qəddimi neyçün kəman etmək dilərsən, etməgil!

Çünki eşqin məskənidir könlümün viranəsi,
Həsrətə anı məkan etmək dilərsən, etməgil!

Çün yəqin bildi Nəsimi ağzının var olduğun,
Ol yəqini sən güman etmək dilərsən, etməgil!

### Neylərəm

Dilbəra, mən səndən ayrı ömrü, canı neylərəm?
Tacü təxtü, mülkü malü xanimani neylərəm?

İstərəm vəsli cəmalın ta qılam dərdə dəva,
Mən sənin bimarinam özgə dəvanı neylərəm?

Ey müsəlmanlar, bilin kim, yar ilə xoşdur cahan,
Çünki yardan ayrı düşdüm, bu cahanı neylərəm?

Çox dualar qılmışam mən Xaliqin dərgahına,
Çün muradım hasil olmaz, mən duanı neylərəm?

Dilbər aydır, ey Nəsimi sabir ol, qılma fəğan,
Mən bu gün səbr eyləsəm, danla fəğanı neylərəm?

### Mərhəba

Mərhəba, xoş gəldin, ey ruhi-rəvanım, mərhəba!
Ey şəkərləb yari-şirin, laməkanım, mərhəba!

Çün ləbin cami-Cəm oldu nəfxeyi-Ruhülqüdüs,
Ey cəmilim, ey cəmalim, bəhrü kanım, mərhəba!

Könlümə heç səndən özgə nəsnə layiq görmədim,
Surətim, əqlim, üqulim, cismü canım, mərhəba!

Ey mələk surətli dilbər, can fədadır yoluna,
Çün dedin ləhmikə ləhmi, qanə qanım, mərhəba!

Gəldi yarım naz ilə, sordu, Nəsimi, necəsən?
Mərhəba, xoş gəldin, ey xırdadəhanım, mərhəba!

● Yaddaş

# "Milli Rəqəmsal Yaddaşda Nəsimi irsi"

**Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" müvafiq sərəncamlarının icrası ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) cari il üçün fəaliyyət planı hazırlayıb.**



Planda MEK-in fondlarında Nəsimiyə aid mühafizə olunan materialların təftişi, sənədlərin sistemli axtarışı və mübadiləyə uyğunlaşdırılmış formatda elektron kataloqa, rəqəmsal bazaya daxil edilməsi, "Nəsimi" adlı e-bazanın yaradılması əsas yer tutur.

Bunlarla bağlı media vasitəsilə, o cümlədən MEK-in rəsmi www.mek.az saytında, sosial şəbəkələrdəki səhifələrində paylaşımlar edilməklə ictimaiyyətə mütəmadi məlumatlar veriləcək. Bundan başqa, kitabxana sərbəst ensiklopedik resurslarda - müxtəlif dillərdə olan "Vikipediya"larda Nəsiminin həyat və yaradıcılığı ilə bağlı məqalələrin yaradılmasını, mövcud olan yazıların əsaslı şəkildə redaktə edilməsini, 2019-cu ilin dekabrına qədər MEK-də sərginin təşkilini, "Bir kitabın izi ilə" formatında elektron təqdimatın hazırlanmasını və nümayişini, "Milli Rəqəmsal Yaddaşda Nəsimi irsi" mövzusunda müsabiqə keçirməyi də nəzərdə tutub.

Bu gün Nəsimi yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz hissəsidir. Böyük mütəfəkkirin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

İmadəddin Nəsiminin 650 illik yibileyində də şairin irsinin araşdırılması istiqamətində mühüm addımlar atılacaqdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# İctimai asayişi pozmaq cəhdinin qarşısı alındı

Yanvarın 26-da saat 15:30 radələrində 50-60 nəfərdən ibarət bir qrup şəxs "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq Yasamal rayonu Mirəli Seyidov küçəsində toplaşıb küçə yürüşü keçirməyə cəhd edib.

Bu zaman ətrafdakıların diqqətini cəlb etmək, əhali arasında qorxu, vahimə yaratmaq, vətəndaşların istirahət hüquqlarının pozulması kimi qanunazidd hərəkətlərə yol verib ərazidə xidmətdə olan polis əməkdaşlarına qarşı tabesizlik göstəriblər.

Bakı Şəhər Baş Polis İdarəsindən AZƏRTAC-a bildiriblər ki, operativ həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə ictimai asayişin pozulması ilə müşayiət olunan qanunsuz küçə yürüşünün qarşısı alınıb. Aksiyanın 15 iştirakçısı saxlanılaraq Yasamal Rayon Polis İdarəsinə gətirilib, digərləri ərazidən uzaqlaşdırılıb.

Saxlanılan şəxslərdən 10 nəfəri məhkəmə tərəfindən inzibati qaydada həbs edilib, 5 nəfər xəbərdar olunduqdan sonra sərbəst buraxılıb.

# Qonaq-qaralı




Qəbələnin bütün sahələrdə əldə etdiyi uğurlara görə öyünmək haqqı var. Bununla belə, Qəbələ deyəndə hamımızın gözü önündə yüksək turizm infrastrukturunun formalaşdığı, təkcə yerli deyil, eyni zamanda xarici turistlərin də həvəslə gəldikləri məkan canlanır.



Rayonda turizmin inkişaf dinamikasına nəzər salaq: əgər 2008-ci ildə Qəbələyə 14,6 min turist gəlmişdisə, 2013-cü ildə bu rəqəm 45 mini keçmişdir. 2016-cı ildə Qəbələ rayonuna gələn turistlərin sayı 99,7 min nəfər olmuşdur ki, onların da 32,6 min nəfəri xarici turistlərdir.

2018-ci ilin son olmayan məlumatına görə, Qəbələyə orta hesabla 300 min turist gəlib. Onların təxminən 115 mini yerli, qalanı əcnəbi turistlər olub. Xaricilərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, İraq, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, Pakistan və Misirdən gəlmişlər.

Qəbələdə turistləri cəlb edən məkanlar çoxdur. Çuxur Qəbələ kəndində yerləşən qədim Qəbələ şəhərinin qalıqları, rayonun müxtəlif yerlərindəki daş kurqanlar (eramızdan əvvəl III-I minillik), Həzrə kəndindəki türbələr kompleksi (XIV-XV əsrlər) görənləri heyrətə gətirir. Nic qəsəbəsindəki nekropol (antik dövr), tarix-diyarşünaslıq muzeyi, İsmayıl bəy Qutqaşınlının və Şəhidlərin xatirə muzeyləri də turistlərin ən çox ziyarət etdiyi yerlərdəndir. Qeyd etmək lazımdır ki, Nazirlər Kabinetinin qərarı ilə rayonun 100-ə qədər tarixi mədəni abidəsi dövlət mühafizəsinə götürülüb. Onlardan biri - qədim Qəbələ şəhərinin qalıqları dünya əhəmiyyətli arxeoloji abidələr siyahısına daxildir. 8 memarlıq, 53 arxeoloji abidə ölkə, digərləri yerli əhəmiyyətlidir.

Qəbələnin yerləşdiyi coğrafiya, burada fərqli iqlim qurşaqlarının çuğlaşması da turistlər üçün fərqli bir dünyadır. Rayonun ekzotik təbiəti ilə təmasda olmaq, möcüzəli Azərbaycan mətbəxinin nemətlərindən dadmaq və mənalı istirahət etmək Qəbələyə gələn yerli və xarici turistlərin sayını ildən-ilə artıran səbəblərdəndir.

Bu gün Qəbələdə irili-xırdalı 100-dən artıq turizm obyekti fəaliyyət göstərir. Gün ərzində həmin obyektlərdə ümumilikdə 3 minə yaxın qonağa milli, türk və Avropa yeməkləri, meşə gəzintisi, atla gəzinti, balıq ovu, göldə qayıqla gəzinti, rayonun görməli yerlərinə və tarixi abidələrinə səyahət xidmətləri göstərilir. Bundan əlavə, turistlər "Qəbələnd" istirahət və əyləncə mərkəzinin, hotellərin nəzdindəki fitnes sağlamlıq mərkəzlərinin, sauna, masaj salonu, türk hamamı və diskotekaların xidmətlərindən də istifadə edirlər.

Ağdaşın Ləki qəsəbəsindən Qəbələyə dəmir yolu xəttinin çəkilməsi isə bu məkanın cəlbediciliyini daha da artıracaq. Layihə yekunlaşdıqdan sonra Ağdaşın ərazisindən keçməklə Qəbələnin hava limanına qədər dəmir yolu ilə gəlmək mümkün olacaq.

Bir sözlə, nadir təbii iqlim şəraiti, mineral bulaqları, laciverd landşaftı ilə seçilən, tarixi İpək yolunun üstündə yerləşən, qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ və qəbələlilər ilin bütün fəsillərində qonaqlarını qarşılamağa hazırdırlar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Alim kəndə qayıdır

*Əvvəli 1-ci səh.*

Elektron kənd təsərrüfatı layihəsi də yeni ideyaların tətbiqi kimi kənd təsərrüfatı fəaliyyətlərinin elektronlaşdırılmasına, məlumatların elektron qaydada tərtib edilərək araşdırılmasına xidmət edir. Bu sistem kənd təsərrüfatı fəaliyyətləri istiqamətində məlumatları toplamaq, təhlil etmək və məlumatlandırmaq kimi xüsusi modulları özündə cəmləşdirir. İnstitut və onun tabeli qurumları ölkənin müxtəlif bölgələrində yaradılmış zona təcrübə stansiyaları, dayaq məntəqəsi və yardımçı təcrübə təsərrüfatlarında tərəvəz sortlarının ilkin toxumçuluğunun elmi əsaslarla işlənib hazırlanması, superelit və elit toxum istehsalına elmi-metodiki kömək göstərilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalatda tətbiqinə metodiki rəhbərliyi həyata keçirirlər. Eyni zamanda istixana və açıq sahə şəraitində tərəvəz, bostan və kartof bitkilərinin yeni sort və hibridlərinin yaradılması, onların toxumçuluğun standartlarına uyğun təşkili nəzərdə tutulur. İnstitutun ərazisindəki 30 hektar açıq sahədə və 6,14 hektarlıq istixanada isə tərəvəz və kartof bitkiləri üçün toxumçuluğun sistemli inkişafına təkan veriləcək, kompleksə daxil olan toxum emalı məntəqələrində respublikada ilk dəfə müasir avadanlıqlarla tərəvəz toxumları emal olunub paketlənəcək.

Ölkə rəhbəri açılış mərasimində elm ocağının yenidən qurulmasını yüksək qiymətləndirmişdir: "Bu institutun fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki ilk dəfə olaraq Azərbaycanda toxumçuluq istixanaları yaradılır. Hazırda bizdə istixanaların sayı çoxdur və indi tərəvəzçiliyə böyük maraq var. Toxumçuluq istixanalarının yaradılması isə ancaq bu gündən başlayır və bu mərkəz ölkəmizin hər bir bölgəsinə dəstək olacaq".

Bu gün ölkədə tərəvəzçiliyin ənənəvi sahə kimi inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu institutdan da aqrar sektorun gözləntiləri böyükdür. Aqrar sektorda istehsalın həcmi artdıqca bu elmi tədqiqat ocağının da fəaliyyəti güclənməli, toxumların əhəmiyyətli hissəsinin ölkəmizdə yetişdirilməsində aparıcı rolu hiss olunmalıdır. Unudulmamalıdır ki, bu gün bütün toxumlar xaricdən gətirilir və onların alınmasına böyük məbləğdə vəsait sərf olunur. Buna görə elm ocağı xaricə valyuta axınının qarşısını almalıdır.

Bütün görülən tədbirlər, tətbiq edilən yeniliklər və islahatların geniş spektri gənclərin aqrar sahəyə marağını artırmışdır. Gənclərin şüurunda yaranan bu yanaşma təqdirəlayiqdir. Dövlət başçısı bu barədə danışarkən onu da qeyd etmişdir ki, gənclərin aqrar sektora artan marağı sevindirici yenilikdir: "Əvvəllər hesab olunurdu ki, aqrar sahə o qədər də cəlbedici, o qədər də maraqlı deyil, hətta hesab olunurdu ki, o qədər də gəlir gətirən sahə deyil. Ancaq baxır sən buna necə yanaşırsan. Əgər dövlət kənd təsərrüfatına dəstək verirsə, həm gəliri olacaq, həm maraqlı olacaq, həm də ki, özünü innovasiyalarla təmin edəcək".

İnnovasiyaların, yeni texnologiyaların, müasir dünya təcrübəsinin aqrar sektora uğurlu tətbiqi ölkəmizdə kənd təsərrüfatını cəlbedici sahəyə çevirir. Savadlı, bilikli gənclərin aqrar sektora axını, torpağa qayıdışı isə kənd təsərrüfatında daha böyük nəticələr əldə etməyə imkan verəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Antimillilərin avantürası və eyforiyası

*Əvvəli 1-ci səh.*

Təbii ki, "mitinq həvəskarları"nı şirnikləndirən köhnə "qvardiyaçılar" hələ də hakimiyyət iddiasından əl çəkə bilməyən AXC-Müsavat "cütlüyü"nün başqanlarıdır. Onlar belə çılğın, həssas gənclikdən öz çirkin niyyətləri üçün həmişə istifadə ediblər.

Anlamıram, onlara dağıdıcı müxalifətmi deyək, yoxsa mənliyini erməni diasporuna satıb, xalqa və dövlətə xəyanət etməyi özünə şərəf bilənlərmi?! Hər iki halda ancaq vətən xainləri belə gündə şəhid məzarları üstündə özünün siyasi ambisiyalarına xalqı qurban verməyə hazır olar!

## Cəmi 3 minə yaxın "tamaşaçı"

Azərbaycan cəmiyyətinə zor tətbiq etməklə onu qurduğu dövlətin əleyhinə mitinqlərə çağırmaq əski AXC-Müsavat qısaömürlü hakimiyyət təmsilçilərinin şakərinə çevrilib. Bunun dəfələrlə şahidi olmuşuq. Meydan eyforiyası ilə hakimiyyətə can atan həmin cütlük üzdə bir olsa da, daldada bir-birinin qənimidirlər. Bu düşərgədəkilərin nümayiş etdirdiyi "birlik" mitinqlərinə heç 3 min tamaşaçı toplaya bilməyən müxalifət hakimiyyətə iddialı ola bilərmi?!

Bu gün nədir onları narahat edən məsələ? Çox da düşünməyə ehtiyac yoxdur. Şəksiz ki, Qarabağla bağlı işğalçı Ermənistanla sülh danışıqlarının intensivləşdirilməsi xaricdə erməni diasporunun maliyyə yardımı ilə dolananları əndişələndirir. Həmin milli satqınların sosial şəbəkədəki yazışmaları və paylaşdıqları videomateriallar da bunu təsdiqləyir. Azərbaycanın əleyhinə beynəlxalq qurumlara donos ötürən satqınlar ölkə daxilində də çaxnaşma yaratmaqda maraqlıdırlar. Onlar ölkəmizin beynəlxalq nüfuzuna xələl gəlməsinə çalışırlar. Sabitlik və dinamik inkişaf yolunu seçən, regionda bütün beynəlxalq enerji və nəqliyyat layihələrinin müəllifinə çevrilən Azərbaycana arxadan zərbə onların əsas məqsədidir. Belə olmasaydı, onların "təbliği" erməni diasporunun çirkin niyyətinə hesablanmaz, həmin satqınlar daxildə özlərini radikal müxalifət hesab edən Milli Şurada "birləşən" eyforiyabazlarla əlbir-dilbir olmazdılar ki...

Bəli, bu gün o cür aksiyaların keçirilməsi üçün cəmiyyətdə hansısa nə siyasi sifariş var, nə də sosial problem mövcuddur. Həm də ölkədə hansısa siyasi tədbir keçirilmir. Onlar, adətən, seçkilərdən öncə "fəallaşır"dılar ki, bu da Azərbaycanın qüdrətli dövlət kimi dünyaya təqdim olunmasından xoflanan bəzi dövlətlərdən aldıqları qrantların balanslaşdırılması demək idi.

Dağıdıcı müxalifət başçılarının mitinqdəki çıxışlarından da göründü ki, onların bir ssenariləri var. Eyni sözləri pafosla hər dəfə "Məhsul" stadionunda şüara çevirirlər. Bəzi antiazərbaycançı təşkilatların hər dəfə "üzü köçürülən" hesabatları kimi, müxalifət başçıları da mitinqə əvvəlki çıxışları ilə gəlirlər. Yəni özünü müxalifət hesab edən partiyaların rəhbərləri cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. Bu həm də onu göstərdi ki, onların aydın proqramı, nöqsan hesab etdikləri məsələlərlə bağlı hansısa təklifləri belə yoxdur.

Beləliklə, sonuncu mitinqdən yadda qalanlar: illərdir dəyişməyən eyni üzlər tərəfindən səsləndirilən köhnə şüarlar, pafoslu, populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər və s.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.

AZƏRTAC xəbər verir ki, yanvarın 26-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Şirvan şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Şirvan şəhəri, Sabirabad, Saatlı, İmişli və Beyləqan rayonlarının sakinlərinin, eləcə də bu bölgədə məskunlaşan məcburi köçkünlərin yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən malların idxal və ixracı, bununla əlaqədar sənədləşmə qaydaları, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Kəngərli, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Quşçuluq fabriki keçən il 4,6 milyon ədəd yumurta ixrac edib



Hacıqabul Quşçuluq Fabriki yumurta istehsalı üzrə ixtisaslaşıb. Hazırda ölkənin yumurtaya olan tələbatının böyük bir hissəsi bu istehsal müəssisəsinin məhsulları hesabına ödənilir.

Quşçuluq fabrikinin direktor müavini Sahib Aslanov AZƏRTAC-a bildirib ki, 2018-ci ildə müəssisədə 300 milyon ədəd yumurta istehsal olunub və məhsulun 4,6 milyon ədədi İran, İraq, Əfqanıstan və Gürcüstana ixrac edilib. Cari ildə isə fabrikdə 500 milyon ədəd yumurta istehsalı nəzərdə tutulub. Artıq yanvar ayının ötən günlərində müəssisədə 24 milyon ədəd ərzaqlıq yumurta istehsal olunub ki, bunun da 1 milyon 800 min ədədi İrana göndərilib. Bu il ərəb ölkələrinə də məhsul ixracı planlaşdırılır. Artıq Səudiyyə Ərəbistanından sifariş də alınıb.

Müəssisədə istehsal olunan məhsulun keyfiyyətinə xüsusi diqqət yetirilir.

# Ötən il Qaxda 601 yeni iş yeri açılıb

2018-ci ildə Qax rayonunda 601 yeni, daimi iş yeri açılıb. İş yerlərinin 60-ı yeni açılan, 165-i mövcud, 39-u fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 337-si isə fiziki şəxslərdə yaradılıb.

Bu barədə AZƏRTAC-a Qax Rayon Statistika İdarəsindən məlumat verilib.

Qurumdan bildiriblər ki, əhalinin məşğulluğunun təmin edilməsində rayonda yeni fəaliyyətə başlayan aqropark, həmçinin "Monto-Ferro", "Ata-baba fabrika", "Qafqaz Beer Co" məhdud məsuliyyətli cəmiyyətlərə məxsus müəssisələr əsas rol oynayıb.

Ümumiyyətlə, regionların inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarında, həmçinin regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası nəticəsində son 10 ildə Qax rayonunda 4122-si daimi olmaqla 4567 yeni iş yeri açılıb.





# Şəhərdə 48 mənzilli yeni yaşayış binası inşa olunur

Lerik şəhərində istismar müddəti başa çatmış yaşayış binalarının sakinləri üçün 48 mənzilli yeni yaşayış binasının tikintisinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 900 kvadratmetr ərazidə inşa edilən yaşayış binası iki korpusdan ibarət olacaq.

Hazırda binanın tikintisində torpaq işləri başa çatdırılıb, bünövrə işlərinə başlanılıb.

Yeni yaşayış binasının bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.


# "Azərişıq" ASC müxtəlif mal-materialların satın alınması məqsədilə açıq tender elan edir

Tender 2 (iki) LOT üzrə keçirilir:

LOT-1
Müxtəlif elektrik mallarının satın alınması - 400 manat
LOT-2
Müxtəlif sərfiyyat mallarının satın alınması - 400 manat

"Azərişıq" ASC
Hesab № AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 13 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 mart 2019-cu il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Dünya olduğu kimi

# Sirli üçbucaq - Bermud müəmması



Bermud üçbucağı Atlantik okeanının şimalında Florida, Bermud adaları və Puerto Rikonu birləşdirən şərti xətlərin əhatə etdiyi üçbucaq ərazidir.

Möcüzələr və müəmmalarla dolu olan bu yer planetin ən dəhşətli və müdhiş ərazisi hesab olunur. Buraya "Atlantik qəbiristanlığı", "ölüm və ya şeytan üçbucağı" da deyilir. Səbəb isə bu ərazidən keçən gəmilərin, təyyarələrin və s. heç bir iz qoymadan yoxa çıxmasıdır.

1502-ci ildə ispan dənizçisi Bermudes Atlantik okeanında gəmilər üçün təhlükəli olan riflər (sualtı qayalar), saylarla (dayazlıqlar) əhatə olunan ada kəşf etdi. Buranı Şeytan adası adlandırdı. Elə onun şərəfinə həmin yer Bermud üçbucağı adlandırıldı.

Bermud üçbucağı zonasında olanların çoxu müşahidə edib ki, burada kompas fərqli yönlənir, yanlış göstərir, yaxud tamamilə sıradan çıxır. Bəzi alimlər Bermud üçbucağı zonasındakı itkiləri dünya okeanının əsas cərəyanlarından biri olan Holfstrimlə bağlayırlar. Suyun altında 9 kilometr dərinliyində olduğundan bu ərazidə batmış hər hansı obyekti tapmaq qeyri-mümkündür.

1840-cı ildə Baham adalarının paytaxtı olan Nassau limanının yaxınlığında Fransanın "Rozali" gəmisi aşkarlanır. Əla vəziyyətdə olan gəmidə hər şey qaydasında idi, bircə gəmi heyəti yoxa çıxmışdı. Bununla da "Bermud üçbucağı"nın qeyri-adi tarixçəsi başlayır. Bu tarixçənin səhifələrində 103 ton su tutumu olan "Mariya Çelesta" gəmisinin başına gələn müəmmalı hadisə (7 noyabr 1872-ci il) xüsusi yer tutur. Aşkar olunan bu gəminin də heyəti yoxa çıxmışdı.

1945-ci ildə ABŞ-a məxsus hərbi təyyarə eskadrilyası ilə bağlı baş vermiş mistik hadisə ən məşhur əhvalatlardan biridir. İçərisində 14 heyət üzvü olan beş bombardmançı təyyarə məşq uçuşu zamanı radarın ekranından yoxa çıxıb. On üç heyət üzvü ilə onların axtarışına yollanan təyyarə də ilim-ilim itib.

Ən məşhur hadisələrdən biri də "Meri Selist" gəmisinin "Bermud üçbucağı"nda yoxa çıxmasıdır. Lakin çox sonralar (1872) "Deja Qrasiya" adlanan ingilis gəmisi təsadüfən "Meri Selist" gəmisinə rast gəlir. Bu hadisədə maraqlısı odur ki, gəmidə heç bir həyat əlaməti olmasa da, buradakı bütün əşyalar, sənədlər, çarpayılar, stol, ərzaq və s. səliqə ilə yerində qalmışdı.

Ötən ilə qədər "Bermud üçbucağı"nda 200-ə yaxın qəza baş verib, 8127 nəfər itkin düşüb. Son 40 ildə isə 100-dən çox təyyarə və gəmi itib.

Sonuncu araşdırmalarda qəzalara səbəb kimi həmin bölgədə hündürlüyü 30 metrə qədər çatan ani dalğaların yaranması göstərilib. Deyilənə görə, dalğalar burulğan forması alaraq həmin an oradan keçən gəmi və təyyarələri özünə çəkməyə başlayır.

*Fərizə ƏHMƏDOVA, "Azərbaycan"*

## Bilirsinizmi...



- Hər kəsin barmaq izi fərqli olduğu kimi, dil izi də müxtəlifdir.
- İnsan bir ildə ən azı 1460 yuxu görür.
- Sağ əlini istifadə edənlər solaxaylardan təxminən 9 il daha çox yaşayırlar.
- İnsan saçı üç kilo ağırlıq qaldıra biləcək gücdədir.
- Dünyadakı istilik 1900-cü ildən etibarən 0.7 dərəcə artıb.
- Ayaq qoxusunun pendirli çips qoxusuna bənzəməsinin səbəbi tərkibində eyni növ kimyəvi maddələrin olması ilə əlaqədardır.
- Əsnəməyimizin səbəbi çox oksigen almaq ehtiyacımız deyil, beynimizi soyutmaqdır.
- Bethoven musiqi bəstələmədən əvvəl başını soyuq suya salardı.
- Everest dağının uzunluğu ildə təxminən 4 mm artır.
- 2011-ci ildə Yaponiyada meydana gələn 8.9 bal gücündəki zəlzələ elə təsirli oldu ki, dünyada günlər 1.8 mikrosaniyə qısaldı.
- Yer cazibəsinin olmadığı bir yerdə insan ağlaya bilməz. Çünki göz yaşı yerə doğru hərəkət etməz və gözdən çıxmaz.
- Leonardo Da Vinçi eyni anda bir əliylə yazı yazıb, digər əliylə şəkil çəkə bilirmiş.
- Dünyanın ən geniş yolu olan Braziliyadakı Anltsal eksendə təxminən 160 maşın eyni anda yan-yana gedə bilər.
- Səudiyyə Ərəbistanında qadın ərinə qəhvə hazırlamasa, əri onu boşaya bilər.
- Bir insan həyatının iki həftəsini işıqforda qırmızı rəngin yaşıla keçməsini gözləməklə keçirir.
- İsti su soyuq sudan daha ağırdır.



## Mismarlı şam rəngli saatın sələfidir

**Saatın icadından çox əvvəl müəyyən müddət boyunca yandırılan şam saatları var idi.**

İnsanlar zəngli saat qurmaq istəyəndə həmin saata uyğun şəkildə şama bir mismar vururdular. Və şam o yerə qədər əriyəndə mismar metal şamdanın üstünə düşüb səs çıxararaq onları oyadırmış.

## Dünyanın ən soyuq şəhəri

**Rusiyanın Sibir bölgəsinin şərqindəki Yakutsk dünyanın ən soyuq şəhəri kimi tanınır.**



Orada qış aylarında ortalama temperatur mənfi 34 dərəcədir. Şəhərin küçələrində soyuq və şaxtaya görə gəzmək, hətta ətrafı görmək belə çətindir. İnsanlar çox zəruri olmadığı hallarda bayıra çıxmırlar. Çox az hallarda küçədə qalın kürkə bürünmüş, kirpikləri buz bağlamış insanlar görə bilərsiniz.

# Sıfır necə yarandı?

**Elmin, mühəndisliyin və riyaziyyatın əsasında "heç nə" dayanır. Burada "heç nə", şəksiz ki, sıfırdır. Sıfır bir anlayış kimi qədimlərdən bəlli olub. Onu Babil və Mayya yazılarında görmək mümkün idi.**



Onunla fəsillərin keçidini göstərirdilər. Qədim alimlər sıfırla hər hansı bir rəqəmin "yoxluğunu" bildirirdilər. Babilistanlılara gəlincə, onlar bu rəqəmi mövcud olmayan rəqəmin iki yanında kiçik ox işarələri ilə göstərirdilər.

Bütün başqa rəqəmlərin qrafikası, yeni görkəmi tarix boyunca dəyişsə də, sıfırın işarəsi dəyişməz qalıb. Sıfır həmişə dairə şəklindədir.

Lakin bütün riyazi kamilliyinə baxmayaraq, sıfırın normal rəqəm kimi qəbul olunmasına 2 min il lazım gəlib. Bu isə Hindistanda baş verib. Sıfırın yeddinci əsrdən başlanan yüksəlişinin arxasında hind astronomu Braqmaqupta dayanır. O vaxt ryaziyyatda şunya - sıfır təkcə yoxluğu göstərmək üçün deyildi, o, başqa rəqəmlərlə birlikdə hesablamalarda iştirak edirdi. Onu toplamaq, çıxmaq, vurmaq olurdu. Bunların arasında ən müəmmalısı bölmədir. Məhz bu, riyaziyyatın yeni bir sahəsinin qolqanad açmasına imkan verib. Sıfır sonradan Cənubi Asiyadan Yaxın Şərqə doğru yeridi. Burada isə islam alimləri bugünədək istifadə etdiyimiz rəqəmlər sistemini yaratdılar.

Lakin özünün belə ruhani və intellektual başlanğıcına baxmayaraq, sıfır real mübarizələrlə üzləşdi. Bu rəqəm Avropaya səlibçilərin İslam dünyasına yürüşü zamanı daxil olmuşdu. 1299-cu ildə Florensiyada sıfır da, bütün başqa ərəb rəqəmləri kimi, qadağan edilmişdi. Belə bir fikir yayılmışdı ki, guya bu rəqəmlər fırıldaqçılığa yol açır. Onların sözünə görə, sıfırdan asanlıqla 9 düzəltmək, qiymətləri saxtalaşdırmaq olar. Bundan başqa, sıfır çox qorxulu presedent yaradırdı, çünki mənfi rəqəmlərin gəlişinə qapı açırdı.

Lakin maraqlıdır ki, sıfır yalnız 15-ci əsrdə bütün ərəb rəqəmlərinin arasında qəbul edilib. Təsəvvür edin, bu vaxt artıq Oxford Universiteti, çap mətbuatı bir əsr idi ki, mövcud idi. Lakin sıfırın əsl əhəmiyyətinin riyaziyyatda qəbul edilməsi indiyədək istifadə etdiyimiz əksər elmi və texnoloji metodların əsasını qoyub. Nəhayət, XVII əsrdə sıfır fransız filosofu Deskartesin kəşf etdiyi kartezian koordinat sisteminin (məktəbdə gördüyünüz x və y qrafikləri) əsası oldu. Bu sistemdən mühəndislikdən tutmuş kompüter qrafikasınadək hər yerdə bu gün də istifadə olunur. Bellos bunu ecazkar şəkildə belə ifadə edib: "İntibah, aralarında sıfırın da olduğu ərəb rəqəmlərinin gəlişi ilə həqiqətən də işıq saçdı. Bu, baş verəndə ağ və qara hesab dünyası bir anın içində şərəfləndi və rənglərə büründü". İntibah dövründə isə sıfır daha da qüdrətləndi.




Bir ildırım təxminən 30 min Kelvin (29,726 dərəcə) istiliyə malikdir. Ancaq Günəş səthinin istiliyi 6 min Kelvindir (5,726 dərəcə). Günəşin səthi isə onun ən soyuq yeridir.




Dalğıcların üzərindəki su qırmızı və sarı işığı filtrləyərək dənizin altında hər şeyin mavi tonda olmasını təmin edir. Saxta bir işıq qaynağı ilə dənizin altında üzsəniz, oradakı bütün rəngləri olduğu kimi görə biləcəksiniz.

# Arıçılığa xüsusi diqqət yetirilir

Yanvarın 26-da Bakıda V Azərbaycan Beynəlxalq Arıçılıq konfransı işə başlayıb. AZƏRTAC xəbər verir ki, konfransda ölkəmizin arıçıları ilə yanaşı, Türkiyə və Rusiyadan gələn mütəxəssislər də iştirak ediblər.




Konfransda çıxış edən Kənd Təsərrüfatı Nazirliyi Heyvandarlığın təşkili və identifikasiya şöbəsinin müdiri Asəf Ömərov ölkəmizdə son illər arıçılığın inkişafı ilə əlaqədar görülən işlər, bu sahəyə verilən subsidiyalar, eləcə də özəl qurumların arıçılığa göstərdiyi dəstək barədə danışıb. Onun verdiyi məlumata görə, nəsildən-nəslə keçərək yaşayan arıçılıq ənənəsi uzun illərdir ki, ölkəmizdə də uğurla davam etdirilir. Sovetlər dönəmində bu peşə xeyli dərəcədə tənəzzülə uğrasa da, müstəqillik illərində, xüsusilə son illərdə yenidən dirçəldilərək intibah dövrünü yaşayır. Elə bunun nəticəsidir ki, arıçılıqla məşğul olanların sayı getdikcə artır və ildən-ilə arıçılıq məhsullarının istehsalı çoxalır. Qeyd olunub ki, bu sahədə kadr hazırlığı da çox mühüm məsələlərdən biridir və ona görə də ölkəmizdə təsərrüfatın bu sahəsi ilə məşğul olanlar peşə hazırlığını artırmaq üçün Türkiyəyə göndərilir, qonşu ölkələrin qabaqcıl təcrübəsi öyrənilərək yayılır, arıçılığa dair kitab və broşürlər nəşr edilib yayılır.

Azərbaycan Arıçılıq Assosiasiyasının sədri Bədrəddin Həsənov, Türkiyənin Uludağ Universitetinin professoru Ləvənt Aydın, Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı Nicat Rzazadə, Türkiyə Mərkəzi Arıçılar Birliyi sədrinin köməkçisi Cəfər Kaban və başqaları çıxış ediblər.

Konfransda çıxış edən ölkəmizin və qonşu ölkələrin peşəkar arıçıları arı ailələrinin seleksiyası, genetik xüsusiyyətləri, bal arılarının infeksion xəstəlikləri, ana arının cütləşmə biologiyası, bal, arı südü, çiçək tozu, güləm və propolis istehsalının artırılması üsulları, eyni zamanda, arıçılıq məhsullarının tədarük, saxlanma və ixracında olan çətinliklər barədə alim və mütəxəssislərin məruzələri dinlənilib, ayrı-ayrı peşəkar arıçılar şəxsi təcrübələrində tətbiq etdikləri üsulları bölüşüblər.

V Beynəlxalq Arıçılıq konfransı yanvarın 27-də öz işinə yekun vuracaq.

# Beynəlxalq aləm

## Yunanıstan parlamenti Makedoniyanın yeni adını qəbul etdi



Yunanıstan parlamenti Makedoniya Respublikasının yeni adı ilə bağlı Afina və Skopye arasında sazişi təsdiqləmişdir. Sənədi 153 deputat dəstəkləmiş, 146 deputat əleyhinə səs vermişdir.

Adının Şimali Makedoniyaya dəyişdirilməsi bu ölkənin Avropa İttifaqı və NATO-ya üzv olmasına kömək edəcək. Keçmiş Yuqoslaviya respublikasının yeni rəsmi adı barədə saziş ötən il iyunun 17-də Makedoniya və Yunanıstanın xarici işlər nazirləri tərəfindən Prespa gölünün sahilində imzalanmışdır. İki ölkə arasında sərhəd bu göldən keçir.

## Türkiyə ordusu 43 terrorçunu zərərsizləşdirdi



Türkiyə Silahlı Qüvvələri son bir həftə ərzində ölkə ərazisində və onun hüdudlarından kənarda 43 terrorçunu, o cümlədən silahlıların başçılarından birini zərərsizləşdirmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. PKK/KSK terrorçularına qarşı əməliyyatlar Diyarbəkir, Şırnak, Muş, Bitlis və Mardin vilayətlərində, habelə İraqın şimalında keçirilmişdir. Terrorçuların 38 atəş nöqtəsi, sığınacağı və silah anbarı dağıdılmışdır.

Ekstremistlərdən 8 tüfəng, 35 kiloqram ammonium nitratı, 8 əl qumbarası, 1 ratsiya, 23 əldəqayırma partlayıcı qurğu müsadirə edilmişdir.

## *Braziliyada su bəndi dağıldı:* 50 ölü, 200 itkin



Braziliyanın cənub-qərbində yerləşən Minas-Jerays vilayətində su bəndinin dağılması nəticəsində 50 nəfər həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, təxminən 200 nəfər itkin düşmüş hesab olunur. Hazırda xilasedicilər və könüllülər adamların axtarışını davam etdirirlər.

Su bəndi dağıldıqdan sonra onlarca adam faktiki olaraq çayın yaxınlığında "tələ"yə düşmüşdür. Hakimiyyət orqanları etiraf edir ki, sağ qalmış adamları tapmaq şansı minimaldır. Ətrafdakı evlərin sakinləri artıq təxliyə edilmişlər.

Bəndin sahibi olan "Vale" şirkətinin məlumatına görə, fövqəladə vəziyyət rayonunda hadisə zamanı 300-ə yaxın əməkdaş işləyirmiş. Bənd dağ-mədən sənayesi tullantılarının saxlanması üçün nəzərdə tutulmuş rayonda dağılmışdır. Xatırladaq ki, həmin rayonda 2015-ci ildə də su bəndi dağılmışdı. O vaxt 19 nəfər həlak olmuşdu.



## ABŞ hökumətinin işi bərpa olundu

ABŞ Prezidenti Donald Tramp Konqreslə razılığa gələrək federal hökumətin işinin müvəqqəti olaraq bərpa edilməsi haqqında fərman imzalamışdır. Bu barədə Ağ ev məlumat vermişdir.

Hökumət üç həftə - fevralın 15-dək işləyəcək. Tramp ümidvar olduğunu bildirmişdir ki, bu müddətdə respublikaçılar və demokratlar Meksika ilə sərhəddə təhlükəsizlik tədbirləri barədə sazişə gələcəklər. Eyni zamanda Prezident xəbərdarlıq etmişdir ki, tərəflər divarın tikintisi ilə bağlı razılıq əldə edə bilməsə, o, yeni şatdauna hazırdır.

Xatırladaq ki, federal hökumətin fəaliyyəti dekabrın 22-dən qismən dayandırılmışdır. Meksika ilə sərhəddə divarın inşasının maliyyələşdirilməsi ilə əlaqədar Konqreslə fikir ayrılığı üzündən ABŞ Prezidenti büdcəni imzalamaqdan imtina etmişdi. Bu səbəbdən minlərlə dövlət qulluqçusu ödənişsiz məzuniyyətə göndərilmişdir.

## İtaliya səmasında təyyarə və helikopter toqquşdu



İtaliyada helikopterlə turist təyyarəsinin toqquşması nəticəsində azı 5 nəfər həlak olmuş, 2 nəfər yaralanmış və 2 nəfər itkin düşmüşdür. Bu barədə "Rai News 24" telekanalı xəbər verir.

Hadisə İtaliyanın Fransa ilə sərhədyanı Valle-d'Aosta rayonunda baş vermişdir. Zərərçəkənlər Fransa və İsveçrə vətəndaşlarıdır. Qəzanın səbəbləri barədə hələ ki məlumat yoxdur.

Hər iki uçuş aparatı Rutor buzlağına düşmüşdür. İtaliyanın Uçuşların Təhlükəsizliyi Agentliyi hadisə yerinə operativ istintaq qrupunu göndərmişdir.

## İranda silahlı hücum nəticəsində iki asayiş keşikçisi öldürülüb



İranın Xuzistan əyalətinin Mahşəhr şəhərində təhlükəsizlik xidməti əməkdaşlarına silahlı hücum nəticəsində bir əsgər və bir polis nəferinin öldürüldüyü bildirilir. ISNA informasiya agentliyi xəbər verir ki, Mahşəhr şəhərinin başçısı Möhsün Bəyravənd jurnalistlərə Seduki prospektində asayiş keşikçilərinin avtomobilinə yaxınlıqdakı nəqliyyat vasitəsindən atəş açıldığı, əsgər və polisin yerindəcə həlak olduqları barədə məlumat verib.

Silahlıların hadisə yerindən qaçdıqları, ərazidə axtarış-əməliyyat tədbirlərinin həyata keçirildiyi bildirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəsib Quliyev ailəsi ilə birlikdə Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elçin, Namiq və Zakir Quliyevlər Qasımovlar ailəsinə əzizləri

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8280
Sifariş 207
Qiymət 40 qəpik